## Tərtərdə minaya düşən şəxsin ayağı amputasiya edilib




**Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) bu gün Tərtər rayonunda baş verən mina hadisəsi barədə əlavə məlumat yayıb.**

ANAMA-nın Mətbuat Xidmətindən verilən məlumata görə, martın 9-da Tərtər rayonunun Çaylı kəndi ərazisində minalardan təmizlənməmiş ərazidə piyada əleyhinə minanın partlaması nəticəsində xəsarət alan 1989-cu il təvəllüdlü Hadıyev Yaquar Əliheydər oğlu xəstəxanaya yerləşdirilib və sol ayağı amputasiya edilib.

"ANAMA bir daha vətəndaşlara müraciət edərək məsuliyyətli davranmağa, icazəsiz səfərlərdən çəkinməyə, təhlükəli və şübhəli ərazilərə daxil olmamağa, rastlaşdıqları naməlum əşyalara toxunmamağa çağırır", məlumatda deyilir.

## Türk lirəsi dollar qarşısında rekord dərəcədə ucuzlaşıb



**Türk lirəsi ABŞ dolları qarşısında rekord dərəcədə ucuzlaşaraq 18,9620 lirə səviyyəsinə enib.**

"Report" xəbər verir ki, bu barədə "Reuters" məlumat yayıb.

*Qeyd olunur ki, Türkiyənin milli valyutasının dəyərdən düşməsi investorların bu ilin fevralında ölkədə baş vermiş güclü zəlzələlərin iqtisadi nəticələri barədə qiymətləndirmələri ilə bağlıdır.*





# Fərid Səfərli yoxa çıxıb

### Azərbaycan XİN İrana nota verib

**Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadənin yerli media nümayəndələrinin sualına cavablayıb.**

Xarici İşlər Nazirliyindən verilən məlumata görə, "Azərbaycan Respublikasının vətəndaşı, Almaniyanın Yena Universitetinin tələbəsi 1997-ci il təvəllüdlü Fərid Qabil oğlu Səfərlinin 20 fevral tarixində İran İslam Respublikasına səfərə getdiyi, lakin 4 mart tarixindən etibarən ondan xəbər alınması mümkün olmadığı barədə məlumat yayılıb. Xarici İşlər Nazirliyi tərəfindən məsələ ilə bağlı hansı tədbirlər görülür?" sualına A.Hacıyev belə cavab verib:

"Qeyd edilən məsələ ilə bağlı müraciət Xarici İşlər Nazirliyinə 9 mart 2023-cü il tarixində daxil olub.

Sözügedən məlumata aydınlıq gətirilməsi məqsədilə, Xarici İşlər Nazirliyi müvafiq olaraq İranın ölkəmizdəki səfirliyinə nota ünvanlayıb və hal-hazırda qarşı tərəfdən cavab gözləyir.

Azərbaycan Respublikasının vətəndaşı Fərid Səfərlinin yerinin müəyyən edilməsi istiqamətində müvafiq tədbirlər və araşdırma işləri davam edir. Məsələ ilə bağlı ictimaiyyətə əlavə məlumat veriləcəkdir.

Azərbaycan Respublikasının vətəndaşlarına bir daha xatırlatmaq istərdik ki, 27 yanvar 2023-cü il tarixində ölkəmizin İrandakı səfirliyinə qarşı baş vermiş terror hücumundan sonra, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ölkəmizin vətəndaşlarına zəruri olmadığı təqdirdə İran İslam Respublikasına səfər etməməyi, səfər edənlərin isə yüksək ehtiyatlılıq nümayiş etdirmələri barədə səyahət xəbərdarlığı yayıb".

❒ № 44 (5805) 2023-cü il

ŞƏRQ

Qiyməti 40 qəpik

Günəş Şərqdən doğur!

www.sherg.az 10 mart 2023-cü il (cümə)



## Azərbaycanın mövqeləri 23 dəfə atəşə tutulub

### Ermənistan silahlı qüvvələri Ordumuzu cavab atəşi açmağa təhrik edir

**Martın 8-i saat 21:30-dan martın 9-u saat 04:15-dək Ordumuzun Azərbaycan-Ermənistan şərti sərhədində və Qarabağ iqtisadi rayonunda yerləşən mövqeləri 23 dəfə atəşə tutulub.**

Müdafiə Nazirliyindən verilən məlumata görə, Ermənistan silahlı qüvvələrinin bölmələri İstisu, Basarkeçar rayonunun Yuxarı Şorca, Aşağı Şorca, Günəşli, Əzizli yaşayış məntəqələri və Çəmbərək rayonu istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun İstisu, Zəylik, Mollabayramlı, Yellicə, Yuxarı Ayrım, Daşkəsən rayonunun Astaf, Gədəbəy rayonunun Zamanlı və Göyəmli yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.

(səh.2)

## İran Azərbaycandan üzr istəməlidir

### Nobel mükafatı laureatı bu fikirdədir



**Azərbaycana bu və digər şəkildə müdaxiləyə görə İran üzr istəməlidir.**

Bu barədə "Dünya bu gün: Çağırışlar və Ümidlər" mövzusunda X Qlobal Bakı Forumu çərçivəsində "Bölünmüş dünyada dayanıqlığın qurulması: Onun qlobal sülhə təsiri" adlı panelə videomüraciətində Nobel mükafatı laureatı Şirin Ebadi deyib. O qeyd edib ki, xalq rejimin ölkədə insanlara təzyiqinə və İranın digər ölkələrə müdaxiləsinə qarşıdır. "2022-ci ilin payızında İranda baş geyiminə görə başlayan hadisələr xalqın narazılığını təzahürüdür. İran xalqı azad olacaq. Bu rejim dağılana, İran demokratik dövlətə çevrilənə qədər bu hərəkat davam edəcək. Qlobal Forumun iştirakçılarının İranda azadlıq hərəkatına dəstək verəcəklərini gözləyirik", - deyə o əlavə edib.

# Hər münaqişənin öz tarixi, dinamikası və sonu var

### Prezident İlham Əliyev: "Qarabağda yaşayan ermənilərin həyatı bundan sonra daha yaxşı olacaq"




**"Qlobal Bakı Forumunun intellektual səviyyəsi digər beynəlxalq konfransların səviyyəsinə uyğundur. Bu, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrlərinin və idarə həyatinin çox dərin və məhsuldar fəaliyyətinin nəticəsidir".**

Bu fikri Prezident İlham Əliyev martın 9-da Bakıda işə başlayan "Dünya bu gün: Çağırışlar və ümidlər" mövzusunda X Qlobal Bakı Forumunun açılış mərasimində çıxışında deyib. Dövlət başçısı bildirib ki, Forumda 60 ölkədən 300-ə yaxın iştirakçı, o cümlədən keçmiş prezidentlər və hökumət başçıları iştirak edir. Forumda müzakirələrin səviyyəsinin yüksək olacağını vurğulayan dövlət başçısı qeyd edib ki, göstəriləcək yeni həllər çox dəyərli olacaq: "Nizami Gəncəvi Beynəlxalq Mərkəzi dahi Azərbaycan şairi Nizami Gəncəvinin yaradıcılığına böyük hörmətlə yanaşır".

(səh.2)

# Ərdoğanla Kılıçdaroğlunun şansı bərabərləşir

### Bütün hallarda qərarı türk milləti, seçicilər verəcək



**Türkiyədə növbəti prezident seçkilərinə təxminən iki ay qalıb.**

Zaman azaldıqca mübarizə qızışmaqda, seçki öncəsi gərginlik artmaqdadır. Aylardır davam edən qızğın müzakirələrdən sonra nəhayət Cümhuriyyət Xalq Partiyasının (CHP) sədri Kamal Kılıçdaroğlu "Millət İttifaqı"nın prezident seçkilərində vahid namizədi elan olundu.

1948-ci il təvəllüdlü Kamal Kılıçdaroğlu Cümhuriyyət Xalq Partiyasının sədri, Türkiyə Böyük Millət Məclisinin deputatıdır.

(səh.4)




## Sərnişin sıxlığı nəzərə alındı

### Bakı-Xırdalan-Bakı qatarına yeni reys əlavə olunub

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti (ADY) qatarların yolda olma vaxtlarının hərəkət sürətlərinə uyğunlaşdırılması, sərnişinlərin qrafik üzrə vaxtında mənzil başına çatdırılması və sərnişin sıxlığının qismən tənzimlənməsi məqsədilə 11 mart tarixindən etibarən Abşeron dairəvi dəmir yolu xətti üzrə hərəkət edən elektrik qatarlarının hərəkət cədvəlində dəyişikliklər edir.

Bu barədə "Şərq"ə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətindən məlumat verilib.

(səh.7)

## Ölən yoxdur

### 6 yeni yoluxma faktı qeydə alınıb




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 6 yeni yoluxma faktı qeydə alınıb, 41 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 828 825 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 818 497 nəfər müalicə olunaraq sağalıb, 10 138 nəfər vəfat edib, aktiv xəstə sayı 190 nəfərdir. Ölkədə son sutka ərzində 1 583, hazırkı dövrədək isə 7 537 871 test aparılıb.

## Xınalıq kənd sakini ingiliscə danışaraq məşhurlaşdı

### İbrahim Zeynalovu İngiltərəyə oxumağa göndərəcəklər



**MÜSİAD Azərbaycan və MÜSİAD İngiltərə ingiliscə danışaraq məşhurlaşan Xınalıq kənd sakini 13 yaşlı İbrahim Zeynalovu İngiltərəyə oxumağa göndərəcək.**

Bu haqda MÜSİAD-dan daxil olan məlumatda deyilir. Məlumatda da qeyd olunur ki, hazırda İ.Zeynalovun səfəri üçün lazımi tədbirlər görülür. "MÜSİAD Azərbaycan olaraq MÜSİAD İngiltərə ilə birgə balaca həmyerlimizin dil qabiliyyətini daha da təkmilləşdirmək üçün İngiltərəyə yay məktəbinə göndərəcəyik" - deyə məlumatda bildirilir.

(səh.4)



## Xaricdə təhsil alanların qazanc yeri yoxdur

### AZAL ən azı Türkiyə istiqamətinə bilet qiymətlərini endirməlidir

(səh.5)



## ABŞ sülh prosesində Brüsseli dəstəkləyir

### Bunun özü Vaşinqtonun sülh tərəfdarı olduğunu göstərir

(səh.4)




# Hər münaqişənin öz tarixi, dinamikası və sonu var

## Prezident İlham Əliyev: “Qarabağda yaşayan ermənilərin həyatı bundan sonra daha yaxşı olacaq”

**”Qlobal Bakı Forumunun intellektual səviyyəsi digər beynəlxalq konfransların səviyyəsinə uyğundur. Bu, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrlərinin və idarə heyətinin çox dərin və məhsuldar fəaliyyətinin nəticəsidir”.**

Bu fikri Prezident İlham Əliyev martın 9-da Bakıda işə başlayan ”Dünya bu gün: Çağırışlar və ümidlər” mövzusunda X Qlobal Bakı Forumunun açılış mərasimində çıxışında deyib. Dövlət başçısı bildirib ki, Forumda 60 ölkədən 300-ə yaxın iştirakçı, o cümlədən keçmiş prezidentlər və hökumət başçıları iştirak edir. Forumda müzakirələrin səviyyəsinin yüksək olacağını vurğulayan dövlət başçısı qeyd edib ki, göstəriləcək yeni həllər çox dəyərli olacaq: ”Nizami Gəncəvi Beynəlxalq Mərkəzi dahi Azərbaycan şairi Nizami Gəncəvinin yaradıcılığına böyük hörmətlə yanaşır”. N.Gəncəvinin doğma Gəncə şəhərində dünyaya gəldiyini, orada yazıb-yaratdığını və orada da dəfn olunduğunu bildirən dövlət başçısı qeyd edib ki, onun müdrikliyi və istedadı Azərbaycan xalqının müdrikliyinin və istedadının təzahürüdür.

**“X Qlobal Bakı Forumunun mövzuları arasında multiletaralizm xüsusi yer tutur”**

Prezident bildirib ki, X Qlobal Bakı Forumunun mövzuları arasında multiletaralizm xüsusi yer tutur. Azərbaycanın 2019-cu ildə Qoşulmama Hərəkatında sədrliyə başladığını və ölkəmizin sədrliyinin 2023-cü ilədək uzadıldığını xatırladan dövlətimizin başçısı vurğulayıb ki, biz Qoşulmama Hərəkatına yenidən canlandırma gətirdik: ”Əfsuslar olsun ki, müəyyən dövrlərdə bir qədər passivlik var idi. Bu baxımdan biz üç sammit - beynəlxalq tədbir təşkil etdik”. Ölkə başçısı qeyd edib ki, Azərbaycan peyvənd millətçiliyinə qarşı mövqeyini bildirib: ”Biz, həmçinin müəyyən tədbirlərin görülməsinə dəstəyimizi verdik və 80 dövlətə, əsasən Qoşulmama Hərəkatının üzvlərinə yardım etdik. Azərbaycan virusa qarşı mübarizə aparılması üçün Ümumdünya Səhiyyə Təşkilatına təqribən 10 milyon dollar yardım göstərib”.

**“Ermənistanla münaqişəni dinc yolla həll etmək üçün əlimizdən gələni etdik”**

Ölkə rəhbəri bildirib ki, Ermənistanla münaqişəni dinc yolla həll etmək üçün əlindən gələni edib: ”Ermənistan bir milyon azərbaycanlıya qarşı etnik təmizləmə siyasəti yürüdüb, onları Qarabağdan və digər yerlərdən qovub, onlara əzab-əziyyət verib. Ölkələr arasındakı mübahisələr ərazi bütövlüyü və suverenlik prinsipi əsasında həll olunmalıdır. Hər münaqişənin öz tarixi, dinamikası və sonu var. Lakin vacib məsələ ondan ibarətdir ki, ölkələr arasındakı mübahisələr beynəlxalq hüquq - ərazi bütövlüyü və suverenlik prinsipi əsasında həll olunmalıdır. Bu, güclə dəyişdirilə bilməz. Bu, Azərbaycanın mövqeyini təşkil edir. Bu, nəinki bizim işimizə, dünyadakı bütün münaqişələrə aiddir. Biz bu barədə öz mövqeyimizi aydın şəkildə nümayiş etdirmişik”.

Prezident deyib ki, Qarabağda yaşayan ermənilərin həyatı bundan sonra daha yaxşı olacaq: ”Azərbaycan çoxkonfessional, multietnik ölkədir. Azərbaycanda milli azlıqların hüquqları Konstitusiyamız tərəfindən qorunur. Müxtəlif etnik qrupların və konfessiyaların nümayəndələri Azərbaycanda ləyaqətli və dinc şəraitdə yaşayır. Ona görə əminəm ki, Azərbaycanın Qarabağ regionunda yaşayan ermənilərin həyatı işğal dövründən fərqli olaraq, bundan sonrakı dövrdə daha yaxşı olacaq”.

**“Biz hər zaman etibarlı tərəfdaş olmuşuq”**

Prezident diqqətə çatdırıb ki, Azərbaycan hər zaman etibarlı tərəfdaş olub: ”Biz qaz yataqlarımıza investisiyalarımızı artırırıq. Ukrayna-Rusiya müharibəsi başlayandan sonra biz qaz təchizatının artırılması ilə bağlı 10 Avropa ölkəsindən müraciətlər almışıq və bunu da edirik. Avropa Komissiyası Azərbaycanı etibarlı tərəfdaş adlandırır, bu belədir, biz hər zaman etibarlı tərəfdaş olmuşuq. Biz neftimizi, təbii qazı, elektrik enerjisini, neft-kimya məhsullarını beynəlxalq bazarlara, o cümlədən Avropa bazarlarına çıxarırıq”.

**“Azərbaycanın Avropaya qaz ixracını artırması indiki geosiyasi vəziyyət baxımından çox zəruridir”**

Dövlət başçısı bəyan edib ki, Azərbaycan Avropaya təbii qaz ixracını artırır. Bütövlükdə bu həcm xeyli artacaq: ”Azərbaycanın 2019-cu ildə 19 milyard kubmetr qaz ixrac etdiyini xatırladan dövlətimizin başçısı bildirib ki, bu il həmin rəqəm 24 milyard kubmetrdən artıq olacaq. Onun ən azı yarısı Avropaya istiqamətləndiriləcək. Bu, birmənalı olaraq Avropa istehlakçılarına imkan verəcək ki, onların təbii qaza çıxışı olsun. Bu, xüsusən indiki geosiyasi vəziyyət baxımından çox zəruridir”.

**İsmayıl**

# Gürcüstan hökuməti geri çəkildi

## Vətəndaş cəmiyyəti vaxtında addım atmağı bacardı



## “Gürcü Arzusu” buna getsəydi, hakimiyyətin sonu Şevardnadze hökuməti kimi olardı”

**Gürcüstan Parlamentinin birinci oxunuşda Rusiya qanunvericiliyinin analoqu olan ”Xarici agentlər haqqında” qanun layihəsini dəstəkləməsi qonşu ölkədə genişmiqyaslı etirazlara səbəb oldu. Yüzlərlə nümayişçi saxlanıldı, polislə qarşıdurma yaşandı. Çünki qanun layihəsində KİV-ə və xaricdən maliyyə alan ictimai təşkilatlara ”xarici təsir agenti” statusunun verilməsi təklif edilirdi.**

Qanuna əsasən, illik gəlirinin 20 faizdən çoxunu xarici dövlətlərdən, beynəlxalq təşkilatlardan əldə edən, dövlət tərəfindən təsis edilməyən media orqanları və QHT-lər hər ilin yanvar ayında Gürcüstandakı ”xarici təsir agenti” kimi reyestrdən keçməli olacaqlar. Reyestrdən keçməyənlər cərimə ediləcəklər. Hüquqşünaslar qanun layihəsinin qəbul ediləcəyi təqdirdə Gürcüstanda söz və mətbuat azadlığını məhdudlaşdıracağını, ölkənin Avro-Atlantik inteqrasiyasının qarşısını alacağını bildirirdilər. ABŞ, Avropa İttifaqı, BMT və Gürcüstanın bir sıra beynəlxalq tərəfdaşları da qanun layihəsini ciddi tənqid edirdilər. Əhalinin və beynəlxalq aləmin etirazları nəticəsiz qalmayıb. Parlament ”xarici agentlər” haqqında qanunu geri götürüb. Vurğulanıb ki, qəbul edilən qanun layihəsi cəmiyyətdə ciddi fikir ayrılıqlarına səbəb olub. Həmçinin diqqətə çatdırılıb k, ”yalan maşını” qanun layihəsini mənfi tərəfdən təqdim edərək ictimaiyyətin müəyyən hissəsini çaşdırıb: ”Qanun layihəsinə saxta ”Rusiya qanunu” damğası vurulub və onun birinci oxunuşda qəbul edilməsi ictimaiyyətin bir hissəsinin gözündə ölkənin Avropa kursundan uzaqlaşması kimi qəbul edilib. Bundan başqa, radikal qüvvələr gənclərin bir hissəsini qanunsuz fəaliyyətə cəlb ediblər. Biz ölkəmizdə sülh, əmin-amanlıq və iqtisadi inkişafa, eləcə də Gürcüstanın Avropaya inteqrasiya yolunda irəliləməsinə diqqətli olmalıyıq. Ona görə də həmvətənlərimizin enerjisini qarşıdurmaya deyil, ölkənin düzgün istiqamətdə inkişafına sərf etmək lazımdır. Bütün yuxarıda deyilənləri nəzərə alaraq dəstəklədiyimiz qanun layihəsini qeyd-şərtsiz geri götürmək qərarına gəlmişik”. Xatırladaq ki, bundan əvvəl Gürcüstan Prezidenti Salome Zurabişvili nümayişçiləri dəstəklədiyini bildirmiş, qanuna veto qoyacağını vəd etmişdi. Hadisələrdən sonra Gürcüstan Parlamentinin plenar sessiyaları ləğv edilib. Mövcud vəziyyətlə əlaqədar Parlamentdə məhdudlaşdırılmış giriş rejimi tətbiq olunub. Deputatların, akkreditasiyadan keçmiş media nümayəndələrinin və ziyarətçilərin binaya daxil olması məhdudlaşdırılıb.

**”Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzi”nin rəhbəri Samir Hümbətov deyib ki, hazırda Gürcüstanda hakimiyyətdə olan siyasi güc milyarder Bidzina İvanaşvilinin əsas dəstək verdiyi partiyadır. Analitik bildirib ki, bu məqama görə, birbaşa olmasa da, dolayı yolla ”Gürcü Arzusu” hökuməti Rusiyayönümlü qüvvə kimi dəyərləndirilir:** “Xarici agentlər haqqında” qanun layihəsinin analoqonun Rusiyada qəbul olunması və bundan sonra ölkə parlamentində gündəmə gətirilməsi cəmiyyətdə heç vaxt birmənalı qarşılana bilməzdi. Nəzərə alaq ki, son dövrlər Qərb ölkələri Gürcüstana daha çox fokuslanmağa başlayıblar. Belə bir qanun layihəsi Qərb ölkələri ilə işləyən vətəndaş cəmiyyətlərinə və media subyektlərinə ”divan tutmaq” üçün ortaya atılmışdı. Vətəndaş cəmiyyəti vaxtında addım atmağı bacardı. Sonradan ciddi problemlərlə, təzyiqlərlə üzləşməmək üçün öncədən tədbirlərini aldılar və genişmiqyaslı etirazlara nail oldular. Onsuz da Qərb ölkələri Gürcüstan hökumətinin, ölkə rəhbərliyinin belə bir qanunun qəbuluna, təsdiqlənməsinə qətiyyən imkan verməzdi. Çünki ilk növbədə mürtəce qanun layihəsidir. Nəzərə alaq ki, Gürcüstanın təbii sərvətləri yoxdur və cəmiyyətin əksər hissəsi məhz xaricdən gələn qrantlar və maliyyə dəstəyi hesabına fəaliyyət göstərir. Bu hal vətəndaş cəmiyyəti ilə yanaşı, bəzi investisiya korporasiyalarına da aiddir. İndiki məqamda Gürcüstanda belə məsələnin gündəmə gəlməsi İvanaşvilinin rusyönlü hakimiyyətə verdiyi təlimatla bağlıdır. Təbii ki, İvanaşivili də təlimatı Kremldən alıb. Əgər ”Gürcü Arzusu” buna getsəydi, hakimiyyətin sonu E.Şevardnadze hökuməti kimi olardı. Gürcüstan cəmiyyətində Qərbə sadiq olan qüvvələr kifayət qədərdir və onlar indiki hakimiyyətə alternativ ola bilər. Vaxtı ilə Şevardnadzeyə qarşı Mixail Saakaşvilini çıxarmışdılar”.

**İsmayıl Qocayev**

# Azərbaycanın mövqeləri 23 dəfə atəşə tutulub

## Ermənistan silahlı qüvvələri Ordumuzu cavab atəşi açmağa təhrik edir

**Martın 8-i saat 21:30-dan martın 9-u saat 04:15-dək Ordumuzun Azərbaycan-Ermənistan şərti sərhədində və Qarabağ iqtisadi rayonunda yerləşən mövqeləri 23 dəfə atəşə tutulub.**



Müdafiə Nazirliyindən verilən məlumata görə, Ermənistan silahlı qüvvələrinin bölmələri İstisu, Basarkeçər rayonunun Yuxarı Şorca, Aşağı Şorca, Günəşli, Əzizli yaşayış məntəqələri və Çəmbərək rayonu istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun İstisu, Zəylik, Mollabayramlı, Yellicə, Yuxarı Ayrım, Daşkəsən rayonunun Astaf, Gədəbəy rayonunun Zamanlı və Göyəmli yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.

Bundan başqa Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstəsinin üzvləri tərəfindən Azərbaycan Ordusunun Xocavənd, Laçın, Xocalı rayonları və Şuşa şəhəri istiqamətlərində yerləşən mövqeləri də fasilələrlə atəşə tutulub.

Ordumuzun bölmələri tərəfindən qeyd olunan bütün istiqamətlər üzrə adekvat cavab tədbirləri görülüb.

Ermənistan silahlı qüvvələri mövqelərimizi sistematik atəşə tutmaqla Ordumuzu cavab atəşi açmağa təhrik edir və bununla da şərti sərhəddə fəaliyyət göstərən Avropa İttifaqının mülki missiyasının nümayəndələrində yanlış rəy formalaşdırmağa, eləcə də bölgədə süni gərginlik yaratmağa cəhd edir.

Bir daha bildiririk ki, Ermənistan tərəfindən törədilə biləcək təxribatlara və bunun nəticəsində baş verəcək insan təlafatına görə bütün məsuliyyət rəsmi İrəvanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

# İranla üçtərəfli görüş mümkün deyil

## Abdullahianın çıxışı həm də yeni təhlükə gözləntisini gündəmə gətirir

**İranın xarici işlər naziri Hüseyn Əmir Abdullahian Ankarada türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə birgə görüşündə deyib ki, Tehran Azərbaycan, Türkiyə və İran XİN başçılarının üçtərəfli görüşünə hazırdır. Onun sözlərinə görə, İran Suriya ilə Türkiyə arasında vasitəçi də ola bilər:**



”Suriya və Türkiyə regionun iki vacib dövlətidir. İran Suriya, Türkiyə və Rusiyanın da iştirak etdiyi üçtərəfli formata qoşulmağa da hazırdır. Bölgədə altılıq platforması layihəsi həm Türkiyənin, həm də İranın marağındadır”.

*Siyasi şərhçi Asif Nərimanlı ”Şərq”ə bildirib ki, sonuncu dəfə üçtərəfli görüş gündəmə gələndə Tehrandakı səfirliyimizə qarşı terror aktı törədildi. Ekspertin fikrincə, teraktın sifarişçilərinin İran rejimi daxilindəki münasibətlərin gərginliyində maraqlı olan qüvvələr idi:* ”Dövlət başçısı İlham Əliyev də ”İran isteblişmentinin nümayəndələri”nə işarə etmişdi. Yalnız sifarişçilər ədalət mühakiməsi qarşısına çıxarıldığı təqdirdə münasibətlərin normallaşmasından danışmağın mümkün olduğunu demişdi. Rəsmi Tehran isə nəinki sifarişçiləri cəzalandırmır, terrorçuya da ”dəli” adı qoyub məsuliyyətdən yayındırır. Bunun fonunda ”üçtərəfli görüş”dən bəhs etmələri o deməkdir ki, Tehran Bakının tələblərini nəzərə almaq niyyətində deyil. Abdullahianın çıxışı həm də yeni təhlükə gözləntisini gündəmə gətirir. Çünki Bakı-Tehran xəttində təmasları baltalamaq üçün terakta əl atan rejim daxilindəki qüvvələr ”üçtərəfli görüş”ün qarşısını almaq məqsədilə Azərbaycana qarşı yenidən hərəkətə keçə bilər”.

**Analitik hesab edir ki, Təbrizdəki konsulluğumuzun bu qüvvələrin hədəfində ola biləcəyi də istisna edilməməlidir:** ”Bu baxımdan, rəsmi Tehranla münasibətlərin normallaşmasından yalnız həmin qüvvələri neytrallaşdırdığı halda bəhs etmək mümkündür. İranlı nazir Ankarada ”sionist” iddialarını da təkrarlayıb. Bildirib ki, ”sionistlərin Qafqazda mövcudluğu regionun sülh və sabitliyinə ciddi təhlükədir”. Bu, Bakıya qarşı səslənmiş fikirdir və bunu Ankarada dilə gətirmələri Türkiyə üzərindən Azərbaycana təsir etməyə cəhdidir. Halbuki Abdullahian Ankarada ”sionistlər Qafqazdadır” dediyi vaxt İsrail Suriyada İrana bağlı qüvvələri yenidən darmadağın edib. Tehran isə hələ də Qafqazda ”sionist” axtarır”.

**İsmayıl Qocayev**

# Ermənistan suala cavab verməsə…

## “Azərbaycan torpaqlarında məskunlaşan qanunsuz silahlı birləşmələrə qarşı antiterror əməliyyatları başlana bilər”

**“Ermənistanla münaqişəni dinc yolla həll etmək üçün əlimizdən gələni etdik”. Bunu Azərbaycan Prezidenti İlham Əliyev martın 9-da Bakıda işə başlayan ”Dünya bu gün: Çağırışlar və ümidlər” mövzusunda X Qlobal Bakı Forumunun açılış mərasimində çıxışında bildirib.**



Dövlət başçısı qeyd edib ki, Ermənistan bir milyon azərbaycanlıya qarşı etnik təmizləmə siyasəti yürüdüb, onları Qarabağdan və digər yerlərdən qovub, onlara əzab-əziyyət verib.

**Məsələni ”Şərq”ə dəyərləndirən tanınmış jurnalist, siyasi şərhçi Fuad Abbasov bildirib ki, Azərbaycan tərəfi Ermənistanla arasındakı münaqişəni 30 ildən çoxdur dinc yolla həll etməyə çalışıb:** ”Amma onlar uzun illərdir, müharibə ritorikasında ”qisas alma, torpaqları ələ keçirmə və yeni müharibələr” devizi ilə çıxış edirlər. Bunun nəticəsinin nə olacağını isə biz ermənilərə dəfələrlə göstərmişik. Digər tərəfdən, ölkə rəhbərinin bu çıxışı bir xəbərdarlıq kimi də qəbul edilə bilər. Ancaq bundan o yana xəbərdarlıq ediləcək bir şey qalmayıb. Məncə, bu açıqlama ilə İrəvana söz ötürülür ki, əlimizdən gələni etdik, siz nə edə bilərsiz? Əgər Ermənistan tərəfindən bu suala cavab verilməsə, Azərbaycan torpaqlarında məskunlaşan qanunsuz silahlı birləşmələrə qarşı antiterror əməliyyatları başlana bilər”.

**Nihat Müzəffər**




# Bakı artıq Davos kimi siyasi mərkəzə çevrilib

## Burada dünyanın, Avropanın mühüm məsələləri müzakirə edilir

**”Bakı Qlobal Forumu əsrarəngizdir. Mən düşünürəm ki, Bakı artıq Davos kimi siyasi mərkəzə çevrilib və burada dünyanın, Avropanın mühüm məsələləri müzakirə edilir”. Bunu Bakıda Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə ”Dünya bu gün: Çağırışlar və Ümidlər” mövzusunda X Qlobal Bakı Forumunda iştirak edən Ukraynanın keçmiş Prezidenti Viktor Yuşşenko jurnalistlərə deyib.**

O, Avropanın bir sıra hissələrində, o cümlədən Gürcüstan, Qarabağ, Dnestryanı, Ukraynada münaqişələrin davam etdiyini və Rusiyanın Ukraynaya təcavüzünü xatırladıb: ”Elə bir xalq yoxdur desin ki, təhlükəsizlik məsələsi mənim sahəm deyil. Biz bu gün artıq anlayırıq ki, ayrıca olaraq Ukraynanın, Polşanın, Almaniyanın və ya Fransanın təhlükəsizliyi deyə bir anlayış yoxdur. Avropanın yeganə təhlükəsizlik siyasəti var: biz dinc şəkildə yaşayırıq və özümüzü təmin edirik, ya da hər gün Rusiyanın aqressiyası nəticəsində növbəti qurbanları sayacağıq. Buna görə də mən mütəmadi olaraq və dəfələrlə bu forumda iştirak etmişəm”.



Azərbaycanın sədri olduğu Qoşulmama Hərəkatı ölkələri sülhə yaxınlaşdırmaqdadır

**“Azərbaycanın son illərdə oynadığı mühüm rol beynəlxalq münasibətlərdə etiraf olunub”**

Latviya Prezidenti Egils Levits bildirib ki, Azərbaycanın son illərdə oynadığı mühüm rol beynəlxalq münasibətlərdə etiraf olunub: ”Son illər Azərbaycan Prezidenti ilə tez-tez görüşmüşəm və bu gün bu Forumda iştirak edirəm. Ümumiyyətlə, müstəqillik illərində Latviya və Azərbaycan arasında münasibətlər inkişaf edib”. Levits deyib ki, Azərbaycan Qoşulmama Hərəkatında aparıcı rol oynayır: ”Azərbaycanın son illər ərzində oynadığı mühüm rol beynəlxalq münasibətlərdə etiraf olunub. Azərbaycan sülhün qorunması və qlobal məsələlərlə bağlı bir çoxlarını ilhamlandırıb. Azərbaycan pandemiyaya qarşı qlobal təşəbbüslər irəli sürüb. Beynəlxalq hüquq və ərazi bütövlüyü təməl daşlarıdır. Bu, Azərbaycanın siyasətinin vacib hissəsidir. Bu Forum çərçivəsində də Azərbaycan müxtəlif beynəlxalq məsələləri nəzərdən keçirəcək. Biz bu məsələlərə yaxşı bələd olmalıyıq, bu gün də Forumda böyük təcrübəyə malik insanlar var. Mən Forumun sonunda tövsiyələri gözləyirəm. Məsələn, biz Ukraynaya necə yardım edə bilərik ki, ərazi bütövlüyünü bərpa etsin. Beynəlxalq hüquqa hörmətlə yanaşılmalıdır”.

**“Nizami Gəncəvi Beynəlxalq Fondu ideyaların mübadiləsi üçün beynəlxalq hab rolunu oynayır”**

Latviyanın sabiq prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa deyib ki, Nizami Gəncəvi Beynəlxalq Fondu ideyaların mübadiləsi üçün beynəlxalq hab rolunu oynayır: ”Nizami Gəncəvi Beynəlxalq Fondu inandırıcı gücə çevrilir, beynəlxalq platforma kimi qəbul edilir. Bu beynəlxalq platforma ideyaların mübadiləsi üçün artıq beynəlxalq hab rolu oynayır. Bu platforma qlobal narahatlıqlarla bağlı sualları müzakirə etməyə cavab axtarmağa imkan verir”. O bildirib ki, qlobal ictimaiyyət təhdid və təhlükələrlə bağlı ortaq anlayışa sahib olarsa və həmrəylik göstərərsə, o zaman bu təhdid və təhlükələrin nəticələri ilə mübarizə daha asan olar. Vike-Freyberqa çıxışında Rusiyanın Ukraynaya təcavüzkar və əssasız müharibə aparması barədə danışıb: ”Böyük bir ölkə öz tarixi fantaziyalarına və illüziyalarına əsaslanaraq öz qonşusuna hücum edirsə, bu, qəbuledilməzdir. Ukraynaya qarşı aqressiyasında biz bunu görürük. Azərbaycan din azadlığını qətiyyətlə təmin edir, qadın hüquqlarına hörmət olunur”.

Gürcüstanın sabiq Prezidenti Giorgi Marqvelaşvili jurnalistlərə bildirib ki, Qlobal Bakı Forumu hər zaman yüksəkdə olub və getdikcə bu format daha da genişlənir, yeni üzvlər görürük. O artıq çoxdandır bu forumda iştirak etdiyini diqqətə çatdırıb və vurğulayıb ki, hər dəfə bu prosesə qatılan maraqlı və yeni iştirakçılar görür: ”Bu mənim üçün təcrübələri bölüşmək üçün xüsusi formatdır. Biz qlobal problemlər barədə dünyanın müxtəlif regionlarından, müxtəlif perspektivlərdə danışırıq. Bu kontekstdə forum olduqca maraqlıdır”.

**“Dünya ictimaiyyəti Dayanıqlı İnkişaf Məqsədlərinə sərmayə yatırmalıdır”**

BMT-nin Baş katibi yanında İİV-lə birgə Mübarizə Proqramının icraçı direktoru Vinni Byanima bildirib ki, dünya ictimaiyyəti Dayanıqlı İnkişaf Məqsədlərinə sərmayə yatırmalıdır: ”Dünyada iqlimdən tutmuş münaqişələrə qədər çağırışlar var. Pandemiyanın elan olunmasından artıq 3 il ötüb. Bu illər ərzində BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı qarşıya qoyulan vəzifələr istədiyimiz kimi icra olunmayıb. Dünya ictimaiyyəti bir araya gəlməli və Dayanıqlı İnkişaf Məqsədlərinə sərmayə yatırmalı, yeni beynəlxalq maliyyə sistemi qurulmalıdır. Bu halda maliyyə ədalətli qaydada yönəldilə bilər”. BMT-nin Baş katibi yanında İİV-lə birgə Mübarizə Proqramının icraçı direktoru qeyd edib ki, il ərzində 1,5 milyon insan İİV-ə yoluxur: ”İİV-lə bağlı epidemiya dünyada davam edir. Biz müalicə dərmanlarının hazırlanması üçün sərmayə yatırmalıyıq. Biz vətəndaş cəmiyyəti institutlarının fəallığı ilə müəyyən irəliləyişə nail ola bilərik. Çünki müəyyən mərhələyə qədər müalicə mümkündür. Düşünməliyik ki, çətinliklərin həlli üçün nə edə bilərik. Əslində mən nikbinəm. Birgə Dayanıqlı İnkişaf Məqsədlərinə nail ola bilərik”.

**ÜST-nin rəhbəri Azərbaycan Prezidentinə təşəkkür edib**

ÜST-nin baş direktoru Tedros Adhanom Gebreyesus videomesajında Azərbaycan Prezidentinə təşəkkür edib. Gebreyesus deyib ki, problemləri bizi birləşdirən meyar kimi götürməli, ümumi səhiyyəyə diqqət yetirməliyik: ”Səhiyyənin siyasiləşdirilməsi yolverilməzdir, vahid proqram gərəklidir. Vacibdir ki, ölkələr arasında danışıqlar getsin və səhiyyə ilə bağlı ümumi qaydalar müəyyənləşsin”. ÜST-nin baş direktoru qeyd edib ki, bu gün çağırışlar öncəki dövrlərlə müqayisədə azalmayıb: ”Bunlar bizi ayırmamalı, birləşdirməlidir”.

**“Bəşəriyyət, bəşəri dəyərlər böhranla üzləşib”**

BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinos deyib ki, Bakıda, ”odlar ölkəsində” olmaq həmişə gözəldir: ”Dünənki qəbula görə mən Azərbaycan Prezidentinə təşəkkür edirəm. BMT-nin Sivilizasiyalar Alyansı və Azərbaycan arasında əməkdaşlıq yüksək səviyyədədir”. Moratinos bəşəriyyətin çətinliklərlə üzləşdiyini qeyd edərək əlavə edib ki, bu çətinliklər həm də yeni imkanlar və dəyişiklik üçün ümid yaradır: ”Biz qlobal və qeyri-müəyyən dünyada yaşayırıq. İqlim dəyişikliyi, münaqişələr, iqtisadi böhranla üzləşirik. Humanitar dəyərlər deqredasiya edir, nifrət nitqi güclənir, gender, din, dil fərqlərinə görə diskriminasiya artır. Radikal diskrus artaraq yeni normaya çevrilir. İnsanlıq, bəşəri dəyərlər böhranla üzləşir”. O, çıxışında Rusiyanın Ukraynada apardığı müharibəyə də toxunaraq onun qlobal nəticələri barədə qeyd edib: ”Çoxtərəflilik artıq aradan qalxıb. İkili standartlar çoxtərəfliliyi aradan qaldırıb. Dünyada qütbləşmə gedir. Fərqliliyi, mədəni fərqliliyi müdafiə etmək, qorumaq insanlıq üçün vacibdir. Biz həmrəylik göstərərək çətinliklərin öhdəsindən gələ bilərik”, - o söyləyib.

**İtaliya Prezidenti X Qlobal Bakı Forumunun işinə uğurlar arzulayıb**

İtaliya Prezidenti Sergio Mattarellanın ünvanladığı məktubda bildirilib ki, qarşılıqlı anlaşma, tolerantlıq təşviq edilməlidir: ”İfrat yoxsulluğa qarşı mübarizə dövrün ən mühüm çağırışlarından biridir. Azərbaycan Prezidentinin fəaliyyətini yüksək qiymətləndirirəm, Foruma uğurlar arzulayıram”.

**”Britaniya ”yaşıl enerji”yə keçid məsələsində Azərbaycanın əsas tərəfdaşı olacaq”**

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Rişi Sunakın məktubunda isə qeyd olunub ki, Ukrayna xalqı mübarizə aparır, Rusiyanın apardığı müharibə böyük çətinliklər yaradıb: ”Avropanın gələcəyi Ukraynanın qələbəsindən keçir. Rusiya manipulyasiya və nəzarət məqsədilə enerji resurslarından istifadə edir”. Baş nazir vurğulayıb ki, bu gün Azərbaycanın ”yaşıl enerji” təşəbbüsü, Qara dənizin dibi ilə ötürülməsi məsələsi çox vacibdir: ”Bundan sonra Böyük Britaniya ”yaşıl enerji”yə keçid məsələsində Azərbaycanın əsas tərəfdaşı olacaq”.

**“Azərbaycanın sədri olduğu Qoşulmama Hərəkatı bizi sülhə yaxınlaşdırmaqdadır”**

Qazaxıstanın informasiya və sosial inkişaf naziri Darxan Kidirali bildirib ki, Qazaxıstan hər zaman sülh tərəfdarı olduğunu göstərib. Qazaxıstan İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində qida təhlükəsizliyinin mərkəzi halına gəlib. O, hazırkı Qazaxıstan Prezidenti Kasım-Jomard Tokayevin xarici işlər naziri olduğu dövrdə irəli sürülən təşəbbüslə 29 avqustun Dünya Nüvə Təhlükəsizliyi Günü olaraq qəbul edildiyini söyləyib: ”Qazaxıstan hər zaman sülh tərəfdarı olduğunu göstərib. Qazaxıstan İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində qida təhlükəsizliyinin mərkəzi halına gəlib. Hər il Qazaxıstan 7 milyon ton buğda ixrac edir. Qazaxıstan İslam Əməkdaşlıq təşkilatı çərçivəsində müxtəlif ölkələrə kömək etməkdədir”. Türkiyədə baş verən zəlzələni xatırladan Darxan Kidirali qeyd edib ki, Qazaxıstan qardaş Türkiyəyə də yardım edib: ”Bizi birləşdirən Xəzər dənizidir. Yaxın illərdə Xəzərin 9-30 metr çəkiləcəyi bildirilir. Xəzəryanı ölkələr bu problemin aradan qaldırılmasına çalışmalıdır. Digər tərəfdən, hibrid savaşlar, feyk informasiyalar gənclərin düşüncə tərzinə mənfi təsir edir. Hibrid savaşlar da artıq ortaq problemimiz halına gəlib. Süni intellekt də yaxın gələcəkdə təhlükə olacaq, etik məsələlər gündəmə gəlməlidir. Bu kimi problemlərə çarə axtarmaq üçün bu Forum yaxşı bir platformadır. Azərbaycanın sədri olduğu Qoşulmama Hərəkatı da bizi sülhə yaxınlaşdırmaqdadır. Bugünkü Forumun bizi gözəl dünyaya daha bir addım yaxınlaşdırmasını arzulayıram”.

**İsmayıl**

# MEDİA Azərbaycan həqiqətlərini təhrif edən "Freedom House"a cavab verib

**Medianın İnkişafı Agentliyi (MEDİA) Azərbaycan həqiqətlərini təhrif edən ”Freedom House” təşkilatının son hesabatı ilə bağlı bəyanat yayıb. Bu barədə ”Şərq”ə Agentlikdən məlumat verilib.**




Bildirilib ki, ”Freedom House” beynəlxalq qeyri-hökumət təşkilatı açıqladığı son hesabatında Azərbaycanda medianın vəziyyəti ilə bağlı reallıqdan uzaq, qərəzli münasibətini bir daha nümayiş etdirib.

Azərbaycanın informasiya məkanı haqqında səsləndirilmiş qərəzli münasibətə cavab olaraq bəyan edirik ki, ”Media haqqında” Azərbaycan Respublikasının Qanununda hesabatda iddia olunduğu kimi, xarici onlayn platformalara yerli hüquqi şəxs kimi qeydiyyatdan keçmək öhdəliyi qoyulmamışdır.

Belə ki, Qanunun müddəalarına əsasən Azərbaycan Respublikasında xarici media subyektlərinin filial və nümayəndəliklərinin açılması Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə tənzimlənir və bunun üçün həmin subyektlərin yerli hüquqi şəxs kimi qeydiyyatdan keçməsi heç bir halda tələb olunmur.

Xüsusilə vurğulanmalıdır ki, Qanunun müddəaları video paylaşım platformaları, internet televiziyaları və bu kateqoriyadan olan digər fəaliyyət növlərinə qətiyyən şamil edilmir, heç bir halda onların fəaliyyətini tənzimləməyi nəzərdə tutmur.

Beynəlxalq yanaşma nəzərə alınmaqla, media sahəsində baş verən qanunazidd hallara məhkəmə tərəfindən hüquqi qiymət verilməsi nəzərdə tutulmuş, dövlət orqanlarının bu istiqamətdəki səlahiyyətləri tamamilə məhdudlaşdırılmışdır. Heç bir dövlət orqanının media subyektlərinin fəaliyyətini dayandırmaq və ya onların fəaliyyətinə xitam vermək yaxud hər hansı şəkildə müdaxilə etmək hüququ yoxdur. Bu sahədə yarana biləcək bütün hüquqazidd hallar məhkəmələrdə tərəflərin bərabərliyi prinsipi əsas götürülməklə həll edilir.

Qanun ”media sahəsində dövlət senzurası, habelə bu məqsədlə dövlət orqanlarının (qurumlarının) və ya vəzifələrin yaradılması və maliyyələşdirilməsi qadağandır” deməklə senzuranı tamamilə istisna edir. Əlavə olaraq, media sahəsində fikir müxtəlifliyi və fəaliyyət azadlığının təmin edilməsini dövlətin vəzifəsi olaraq müəyyənləşdirir.

Həmçinin Qanun jurnalistlərin ictimaiyyəti məlumatlandırmaq sərbəstliyini təmin etmək məqsədilə informasiyanın əlçatanlığının və operativliyinin təmin edilməsi üçün dövlət orqanları üzərinə media nümayəndələrinə hər hansı fakt və ya hadisə barədə ətraflı məlumat vermək öhdəliyi qoyur, jurnalistlərin peşəkar fəaliyyətinə müdaxiləni yolverilməz hesab edir.

Azərbaycan həqiqətlərini təhrif etməyə davam edən, münasibət bildirərkən rəsmi mənbələrlə əlaqə saxlamayan, dəfələrlə bəyan edilmiş dialoq təşəbbüslərimizi cavablandırmayan və nəhayət, öz ərazi bütövlüyünü bərpa edən ölkəni ”işğalçı” adlandıran təşkilatın hesabatı hüquqi və məntiqi baxımdan tamamilə əsassız və etibarsız olmaqla yanaşı, beynəlxalq hüququn norma və prinsiplərinə də ziddir.

# Yazıçılar Məmmədyarovun kitabına redaktor olmağa hazırdır





**Şərif Ağayar:** “Elmar müəllimin bu təşəbbüsünü alqışlayıram. Məncə, belə kitabları hər kəs yazmalıdır”

**Aqşin Yenisey:** “Yaxın tariximizin uzun illərinə aid faktları birinci əldən oxumaq maraqlı olardı”

**Sabiq xarici işlər naziri Elmar Məmmədyarov saytların birinə verdiyi müsahibədə yaxşı redaktor axtardığını deyib. Keçmiş nazir bildirib:** ”Nazir vəzifəsində işlədiyim 17 ilə yaxın müddət ərzində çıxışlar, müsahibələr və məqalələrimin toplusu olaraq, bir kitab nəşr etmək istəyirəm. Bunun üçün yaxşı redaktor axtarıram ki, həmin adam mənə kömək etsin”. **Tanınmış yazıçı Şərif Ağayar ”Şərq”ə açıqlamasında bildirib ki, özü E.Məmmədyarova redaktə etməyi təklif edir:** ”Heç bir problem yoxdur. Elmar müəllimin bu təşəbbüsünü alqışlayıram. Məncə, belə kitabları hər kəs yazmalıdır”. **Tanınmış şair Aqşin Yenisey diqqətə çatdırıb ki, ona müraciət edən olmayıb:** ”Təklif edibsə, bu çətin işi yüksək qonorar qarşılığında öhdəmə götürə bilərəm. Həm də yaxın tariximizin uzun illərinə aid faktları birinci əldən oxumaq maraqlı olardı”.

**Sücayət Mehti**

# Mirzoyan ərəb ölkələrində "dost" axtarışına çıxıb

## Diplomatiyamız fəallığı artırmalı, qonşu ölkənin manevr imkanlarını məhdudlaşdırmalıdır

**“Ermənistan xarici işlər naziri Ararat Mirzoyan Misirin paytaxtı Qahirədə Ərəb Dövlətləri Liqası Şurasının nazirlər səviyyəsində keçirilən iclasında iştirak edib. Ararat Mirzoyan ərəb dövlətlərinin nazirləri qarşısında Azərbaycan əleyhinə çıxış edib”.**



*Bu barədə ”Atlas” Araşdırmalar Mərkzənin rəhbəri Elxan Şahinoğlu deyib. Analitik bildirib ki, Mirozyan Ermənistanın müsəlman aləmi ilə sıx əlaqələrindən danışıb:* ”Ərəb nazirlərdən biri ona sual verməyib ki, Ermənistan islam dininə bu qədər hörmət edirsə, Qarabağdakı məscidləri niyə dağıdıb? Başqa suallar da aktualdır. Ərəb Dövlətləri Liqasının xarici işlər nazirlərinin toplantısına xristian Ermənistan dəvət olunduğu halda müsəlman Azərbaycan niyə dəvət olunmayıb? Axı ərəb dövlətləri arasında Azərbaycanı dost və tərəfdaş adlandıranlar az deyil. Məsələn, Ərəb Dövlətləri Liqasının 31-ci zirvə toplantısı 2022-ci ilin noyabrın 1-də Əlcəzairdə keçirilmişdi. Azərbaycan Prezidenti İlham Əliyev zirvə toplantısına ev sahibliyi edən Əlcəzair Prezidenti Abdelmacid Tebbunun dəvəti ilə tədbirin açılış mərasimində fəxri qonaq statusunda iştirak etmişdi. Dövlət başçısı İlham Əliyev zirvə toplantısındakı çıxışında Ermənistanın içğalçı siyasəti barədə məlumat vermişdi”.

**E.Şahinoğlu diqqətə çatdırıb ki, Misir ev yiyəsi kimi Ararat Mirzoyanı toplantıya dəvət etdiyi halda Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovu dəvət etməyib:** ”Axı Misirin Prezidenti Əbdülfəttah Əs-Sisi yanvar ayının sonunda Azərbaycana səfər etmişdi. Doğrudur, XİN başçısı Ceyhun Bayramov fevralın 12-də Qahirəyə işgüzar səfər edib və orada Qoşulmama Hərəkatının sədri qismində Ərəb Dövlətləri Liqasının ”Qüds şəhəri və onun əhalisinə dəstək” mövzusunda beynəlxalq konfransda iştirak edib. Ancaq Ərəb Dövlətləri Liqasının xarici işlər nazirlərinin toplantısında iştirak da vacibdir. Azərbaycanla Ermənistan arasında informasiya savaşı da gedir. Ermənistan harda mümkündür Azərbaycan əleyhinə təbliğat aparır, dezinformasiyalar yayır. Diplomatiyamız fəallığı artırmalı, qonşu ölkənin manevr imkanlarını məhdudlaşdırmalıdır”.

**İsmayıl**





# Ərdoğanla Kılıçdaroğlunun şansı bərabərləşir

## Bütün hallarda qərarı türk milləti, seçicilər verəcək

**Türkiyədə növbəti prezident seçkilərinə təxminən iki ay qalıb. Zaman azaldıqca mübarizə qızışmaqda, seçki öncəsi gərginlik artmaqdadır. Aylardır davam edən qızğın müzakirələrdən sonra nəhayət Cümhuriyyət Xalq Partiyasının (CHP) sədri Kamal Kılıçdaroğlu "Millət İttifaqı"nın prezident seçkilərindəki vahid namizədi elan olundu.**

1948-ci il təvəllüdlü Kamal Kılıçdaroğlu Cümhuriyyət Xalq Partiyasının sədri, Türkiyə Böyük Millət Məclisinin deputatıdır. Prezident seçiləcəyi halda Kılıçdaroğlu "Millət İttifaqı"na daxil olan partiyaların liderlərini vitse-prezident təyin etməlidir. İttifaqda Cümhuriyyət Xalq Partiyası ilə yanaşı Səadət Partiyası, Yaxşı Partiya, Gələcək Partiyası, Demokratiya və Sıçrayış Partiyası, Demokrat Partiyası yer alır. Ötən həftə İYİ Partiyanın rəhbəri Meral Akşenerin "altılı masa"nı tərk etməsi, Kılıçdaroğlunun namizədliyinin dəstəklənməməsi aləmi bir-birinə vursa da, qısa zaman sonra sular durulmağa başladı. Akşener israrla bələdiyyə sədrləri Əkrəm İmamoğlu və Mansur Yavaşı önə sürsə də, müxalifətdə əksəriyyətin qəbul etdiyi Kılıçdaroğlu variantı ilə razılaşdı. İqtidar cəbhəsində hakim Ədalət və İnkişaf Partiyasının (AKP) başçılıq etdiyi "Cümhur İttifaqı" çoxdandır ki, artıq öz namizədini bəlli edib. Partiya sədri və hazırkı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan builki seçkilərdə yenidən iştirak edəcəyini ötən il açıqlayıb. Daha bir namizəd isə 2018-ci ildə prezident seçkilərində Ərdoğana uduzmuş Məmləkət Partiyasının sədri Məhərrəm İncədir. Amma İncə təkcə iqtidarın yox, müxalifətin də siyasəti ilə barışmır.

> Ancaq Parlamentdəki üstünlüyün müxalifətə keçməsi ehtimalı böyükdür

**Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli "Şərq"ə bildirib ki, "altılı masa"ya daxil olan siyasi partiyaların "Millət İttifaqı"nda birləşməsinin əsas məqsədi Türkiyədə baş vermiş sistem dəyişikliyi ilə bağlıdır.** Partiya təmsilçisi deyib ki, "altılı masa"da yer alan partiyalar Türkiyədə idarəetmənin əvvəlki sistemə, güclü parlament-üsul idarəsinə dönməsini istəyirlər. "İYİ Partiya sədri Meral Akşenerin son anda fikir ayrılığına düşməsi və söylədiyi tənqidi fikirlər onun "altılı masa"dan birdəfəlik ayrılacağı anlamına gəlmirdi. Məhz ona görə, qısa müzakirədən sonra Türkiyənin mühüm 6 siyasi partiyası yenidən eyni masa ətrafında əyləşdi. Ortaq şəkildə müxalifətin vahid namizədini elan etdilər. Təkcə 6 partiya deyil, digər siyasi təşkilatlar da CHP sədri Kamal Kılıçdaroğlunun namizədliyini dəstəklədikləri yöndə açıqlamalar verirlər. Bu da onu göstərir ki, Türkiyədə prezident və parlament seçkiləri çox gərgin keçəcək".

**S.Əsədli bəyan edib ki, bütün hallarda qərarı türk milləti, seçicilər verəcək. Bizə sadəcə olaraq müşahidə etdiklərimizə əsaslanaraq, prosesləri ümumi şərh etmək qalır:** "Müşahidə olunan odur ki, namizədlər arasında "Millət İttifaqı"nın vahid namizədi elan olunmuş Kamal Kılıçdaroğlunun şansı daha yüksək qiymətləndirilir. Çünki müxalif cameəsi tam olaraq Kılıçdaroğlu ətrafında cəmləşib. Seçki öncəsi keçirilən sorğularda da Kılıçdaroğlunun səs faizi yüksəkdir. Parlamentdəki üstünlüyün müxalifətə keçməsi ehtimalı böyükdür. Təbii ki, indiki Prezident Rəcəb Tayyib Ərdoğanın da şansı çoxdur və dəstəkçisi kifayət qədərdir. Seçkilər ikinci tura qala bilər ki, bu da müxalifət üçün şans deməkdir. Ümumən, Türkiyədə son dönəmlər iqtisadi, maliyyə böhranları, inflyasiya yaşanmaqdadır. Həmçinin baş vermiş dəhşətli zəlzələ də siyasi proseslərə ciddi təsir göstərir və hazırkı hökumətin şansını nisbətən azaldır. Əgər müxalifət seçki öncəsi seçicilərlə yaxşı işləyə bilsə, son nəticəyə də təsir edə bilər. İYİ Partiya sədri M.Akşener üzərinə düşəni etdi. Yəni partiya maraqlarını ümumi maraqlara dəyişmədi və iddiasından geri çəkildi. Bu da mühüm siyasi nəzakətdir və həm də o deməkdir ki, insanlar özlərindən çox dövlətin, millətin gələcəyini düşünürlər".

İsmayıl Qocayev

# Xəlfəli yolu ilə yenə silah-sursat daşınacaq

## Rusiya sülhməramlıları Ermənistanla sərhədə, Laçın yoluna 27 aydır formal olaraq nəzarət edir

**Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistan XİN-in ölkəmiz əleyhinə 8 mart tarixli saxta və yalan dolu bəyanatlarına cavab verib. Nazirliyin bəyanatında vurğulanıb ki, Azərbaycan bundan sonra da öz milli maraqlarının və təhlükəsizliyinin müdafiəsi məqsədilə bütün lazımi tədbirləri görməyə davam edəcək.**

Həmçinin bəyan edilib ki, Ermənistan tərəfinin Azərbaycana qarşı təcavüz siyasətinin və qeyri-qanuni əməllərinin qarşısının alınması məqsədilə, Laçın yolunun başlanğıcında sərhəd-nəzarət keçid məntəqəsi yaradılması labüddür: "Ermənistanın bəyanatı 30 ilə yaxın bir dövrdə həyata keçirdiyi işğal siyasətini, habelə hazırkı postmünaqişə dövründə Azərbaycana və azərbaycanlılara qarşı törətdiyi təxribatları ört-basdır etmək məqsədi daşıyır. Xankəndi-Xəlfəli-Turşsu torpaq yolundan növbəti dəfə hərbi məqsədlər üçün istifadə edilməsi faktının Ermənistan tərəfindən təkzib olunması riyakarlıqdır. Ermənistanın Azərbaycanı öhdəlikləri yerinə yetirməməkdə ittiham etməsi tamamilə əsassızdır. Beynəlxalq Ədalət Məhkəməsinin sonuncu qərarını təhrif etməyə və arzularını reallıq kimi təqdim etməyə çalışan Ermənistanın, guya, Azərbaycanın qərarı yerinə yetirməkdən boyun qaçırmasını iddia etməsi də qəbuledilməzdir. Habelə Azərbaycanın guya bölgənin erməni sakinlərinə qarşı "etnik təmizləmə" və "soyqırım" həyata keçirməyə hazırlaşdığı iddiası absurddur". Xankəndi-Xəlfəli-Turşsu yolu ilə gizli surətdə Qarabağ separatçılarına silah-sursat daşınması və bu faktın ifşası Ermənistan hökumətini çətin duruma salıb. Rəsmi Bakı bu cür qanunsuz gediş-gəlişlərin önünü kəsmək üçün Laçın yolunda nəzarət-buraxılış məntəqəsinin yaradılması tələbini yenidən gündəmə gətirib və bu yöndə qəti addımlar atılacağını bildirib.



> "Nəzarət-buraxılış məntəqələrinin yaradılması, sadəcə olaraq vacib yox, həm də zəruridir. Bu addımın atılması ilə sülh prosesi də sürətlənər"

**Təhlükəsizlik üzrə ekspert, ehtiyatda olan polkovnik-leytenant İlham İsmayıl "Şərq"ə açıqlamasında bildirib ki, separatçıların Xankəndi-Xəlfəli-Turşsu yolu ilə silah daşımasının aşkarlanması, atışma və ermənilərin zərərsizləşdirilməsi o demək deyil ki, təxribat bununla başa çatdı.** Ekspertin fikrincə, erməni tərəfinin təxribatları hadisədən əvvəl də baş verib və bundan sonra da olacaq: "Əmin olun, bir neçə gündən sonra Xəlfəli yolu ilə yenə silah-sursat daşınacaq. Çünki Rusiya sülhməramlıları Ermənistanla sərhədə, Laçın yoluna 27 aydır formal olaraq nəzarət edir. Heç bir ciddi nəzarətdən söhbət getmir. Əksinə, Rusiya sülhməramlıları Qarabağ separatçılarına qanunsuz silah-sursat daşınması üçün şərait yaradırlar. Qarabağdakı qanunsuz silahlı birləşmələr həm İran, həm Rusiya, həm də Ermənistan tərəfindən silahlandırılır. Bu prosesin önünü kəsməyin yeganə yolu Münhen Təhlükəsizlik Konfransında Azərbaycan dövlət başçısı İlham Əliyevin səsləndirdiyi, o cümlədən ABŞ və Avropa rəsmilərinin çox anlaşıqlı və məntiqli qəbul etdikləri nəzarət-buraxılış məntəqələrinin yaradılmasıdır. Bu, sadəcə olaraq vacib yox, həm də zəruridir. Bu addımın atılması ilə sülh prosesi də sürətlənər. 27 ay ərzində sülh şəraitində uzatdıqları prosesi daha çox uzada bilməzlər. Hesab edirəm ki, Azərbaycan tərəfi Rusiya Federasiyasını rəsmən xəbərdar edərək konkret vaxt təyin etməlidir. Nəzarət-buraxılış məntəqəsinin yaradılacağının anonsunu verməlidir. Razılığın olub-olmamasına baxmayaraq, sərhəd qoşunlarımızın iştirakı ilə proses yekunlaşmalıdır. Rusiyanın bu məsələyə etirazı, uzaqbaşı, Fərrux dağında yaşananlarla eyni olacaq. Azərbaycan Ordusu separatçıların dərsini verməklə Fərrux dağında mühüm mövqeni nəzarətə götürdü, Moskva isə sadəcə etiraz etdi. 10 noyabr üçtərəfli bəyanatına istinad edən Rusiya xarici işlər naziri Sergey Lavrov bilməlidir ki, bu saziş Azərbaycan-Ermənistan arasındakı münasibətlərin bütün aspektlərini həll edən sənəd deyil. Həmin sənədə dəyişiklik və ya əlavələr mümkündür. Həmçinin üçtərəfli sazişdə qadağan edilməyib ki, Azərbaycan tərəfi Laçın yolunda nəzarət-buraxılış məntəqəsi yarada bilməz. Sənəddə qeyd olunub ki, Azərbaycan bu yolun təhlükəsizliyini təmin edir, orada ayrıca "maneəsiz" sözü, şərti yoxdur. Yolun təhlükəsizliyinin təmin olunması isə mütləq nəzarət-buraxılış məntəqəsinin yaradılmasından keçir. Bunun başqa yolu yoxdur. Əgər qəti addım atmasaq, hər gün, hər saat erməni təxribatları ilə üz-üzə qalacağıq".

**İ.İsmayıl Azərbaycan rəsmiləri ilə Qarabağ erməniləri arasında baş tutan təmaslardan da bəhs edib:** "Azərbaycan nümayəndələrinin Qarabağ erməniləri ilə görüşünü xüsusi qabartmaq, daha doğrusu, bunu "bayram" kimi təqdim etmək doğru deyil. Ermənilər bizim şərtlərimizi qəbul etmirlər və inteqrasiyanı ümumiyyətlə qəbul etmirlər. Görüşə gələnlər siyasi məsələlər üzrə səlahiyyətli şəxs olmadıqlarını, sadəcə humanitar mövzuları müzakirə etdiklərini bildirdilər. Qaz, işıq, su istəyirlər və bunun əvəzində sadəcə bir dəfə, özü də uzaqdan vizual olaraq mədənlərə baxmağımıza imkan verirlər. Əslində, indiki vəziyyətdə Azərbaycan ekoloqlarının mədənlərdə monitorinq aparmasına da ehtiyac qalmır. Nə qədər ki, həmin bölgədə tam nəzarəti ələ almamışıq, monitorinqlə nəyəsə nail ola bilməyəcəyik. Bunlar, ikinci, bəlkə üçüncü dərəcəli detallardır. Aylardır davam edən aksiyanın da məntiqi sonluğu Laçın yolunda nəzarət-buraxılış məntəqəsinin yaranmasıdır. Böyük hədəflərdən yayınmamalıyıq. Ermənilərin məqsədi birgəyaşayış yox, bizdən torpaq qopartmaqdır. Təbii ki, biz də buna qarşı çıxırıq və bütün zəruri addımları atırıq".

İsmayıl Qocayev

# X Qlobal Bakı Forumunun əhəmiyyəti böyükdür

## Dünyada Azərbaycanın yeri və rolu haqqında aydın təsəvvür yaranır



**"Bakı 2010-cu ildən başlayaraq mövcud risklərin dəyərləndirilməsi, qaynar ocaqlardakı separatizm, dünyanı hədələyən bioloji terrorçuluq və s. kimi mövzularda platforma rolu oynayıb".**

*Bunu "Şərq"ə açıqlamasında politoloq Yeganə Hacıyeva dünən baş tutan "Dünya bu gün: Çağırışlar və ümidlər" mövzusunda X Qlobal Bakı Forumu barəsində danışarkən deyib.*

O bildirib ki, Azərbaycanda keçirilən siyasi, humanitar və mədəni tədbirlər həm maraqlı, həm də faydalı olur: "Bakıda keçirilən müzakirələrin perspektivləri hər zaman dünyaya və regiona fayda gətirib. Digər tərəfdən, Azərbaycan həm də son illərdə aktiv şəkildə postsovet ölkələrindəki konfliktlərin həlli istiqamətində ciddi söz sahibinə çevrilib. Foruma gəldikdə, Bakı Forumu regionun riskləri və bu risklərin qlobal təhlükəsizliyə rol aldığı bəndlər haqqında geniş məlumatlandırma mahiyyəti daşıyır.

Həmçinin ölkə rəhbərinin öz çıxışında Azərbaycan-Ermənistan münasibətlərinə ayırdığı geniş mövqe təkcə bizim milli maraqlarımızın elanı deyil, həm də bu konfliktin Cənubi Qafqaz kimi böyük bir regionun imkanlarını necə limitləməsi barədə məlumatlandırmadır. Ümumiyyətlə, Forumun gündəliyi və çıxış edənlərin kimliyi bizə imkan verir ki, baş tutan tədbir dünyanın mövcud problemlərinin həlli istiqamətində ölkəmizin yanaşmasından kənarda və Azərbaycanın problemlərinin elan olunması ilə keçir".

**Xanım analitikin sözlərinə görə, biz Forumu pandemiyadan sonra formalaşan dünyada Azərbaycanın yeri və rolu haqqında aydın təsəvvürlərin əldə olunması və bu gün üçün Ermənistanı alət olaraq istifadə edən dairələrin yaratdığı anti-Azərbaycan informasiya təbliğatının susdurulması istiqamətində bir imkan kimi dəyərləndirməliyik:** "Bu Forumda biz ölkəmizin milli maraqlarının elan edilməsi ilə dünyanın mövcud problemlərinin həllində iştiracı qismində iştirak edəcəyimizin siqnallarını ötürürük. Digər tərəfdən, Forumda iştirak edən Asiya, Avropa və s. kimi regionları araşdıran beyin mərkəzlərinin nümayəndələrinin region haqqında məlumatlar verməsi, Azərbaycan tərəfi üçün önəmlidir. Biz həmin şəxslərə dünyada baş verənlərdən məlumatlı olduğumuzu və yeri gəldikdə problemlərin həllində təşəbbüskar rol oynaya biləcəyimizin mesajını veririk. Yəni Forumun əsas məqsədi Azərbaycanın mövqelərinin möhkəmlənməsidir. Dünya isə bu Forumla mövcud problemlərini işıqlandırmaq imkanı qazanır. Həmçinin qütbləşmiş ölkələr sırasında olmayan dövlətlər öz səslərini duyurmaq üçün bu platformadan istifadə edir. Məsələn, Forumda Afrikanın problemləri müzakirə edildi. Daha sonra isə bu problemin Qoşulmama Hərəkatı formatında həll yolları axtarılacaq. Yəni nəticədə həmişə proseslərə Təhlükəsizlik Şurasının beş daimi üzvünün pəncərəsindən baxan dünya, problemlərin həllində başqa instansiyaların olması faktı qarşısında qalır. Bu Forum indiki zaman üçün BMT-nin işlək mexanizmlərinin olmaması üzərindən dünyaya Təhlükəsizlik Şurasının beş daimi üzvünün pəncərəsindən baxanların səslərinin duyulduğu yerdir".

Nihat Müzəffər

# ABŞ sülh prosesində Brüsseli dəstəkləyir

## Bunun özü Vaşinqtonun sülh tərəfdarı olduğunu göstərir

**ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bononun bölgəyə səfəri yekunlaşıb. O, Bakıda Prezident İlham Əliyevlə, İrəvanda Baş nazir Nikol Paşinyanla görüşüb, fikir mübadiləsi aparıb.**



> "Əgər ABŞ və ya Aİ sülh sazişinin imzalanmasına nail olsa, bölgədə Rusiyanın təsiri azalacaq"

Bono görüşləri bitirdikdən sonra "Azərbaycanla Ermənistanın sülh müqaviləsinin mətnini özlərinin hazırlamasını istəyirik" fikrini səsləndirib. Birbaşa dialoq nəticəsində müsbət nəticə əldə olunacağı qənaətində olduğunu deyib: "Çünki hər hansı uzunmüddətli, davamlı və balanslı sülh yalnız hər iki tərəfin səyləri ilə mümkündür". Ekspertlərə görə, Vaşinqton Bononun diliylə Bakı ilə İrəvana vasitəçi olmadan dialoqu genişləndirməyi təklif edib. Hazırda 3 vasitəçi var - Moskva, Brüssel və Vaşinqton.

**Politoloq Turab Rzayev "Şərq"ə açıqlamasında bildirib ki, ABŞ bölgədə hansı ölkənin təxribata əl atdığını, gərginlikdə maraqlı olduğunu çox yaxşı bilir. Ekspert vurğulayıb ki, tərəfləri sakitliyə, sülhə səsləyən Amerika və Avropa rəsmilərinin Bakıya səfərlərini Azərbaycana dəstək kimi dəyərləndirmək olar:** "Ən azından sülh prosesinə dəstək kimi xarakterizə etmək olar ki, elə rəsmi Bakının da əsas istəyi bölgədə sülhün bərqərar olmasıdır. Hazırda bir sıra dövlətlərin davranışlarından görünür ki, onlar regionda münaqişəyə, qanlı müharibəyə meyillidir. Onlardan biri sərhəd qonşumuz İrandır. Tehran rejiminin bütün hərəkətləri ilə təxribata çalışdığı göz önündədir. Qarabağdakı təxribatların arxasında isə Rusiya dayanır. Rusiya XİN başçısı Sergey Lavrovun Azərbaycana səfərindən sonra bəlli oldu ki, Moskva ilə Bakının mövqeləri üst-üstə düşmür. Qarabağda vəziyyətin gərgin qalmasında Kremlin də marağı var. Moskva hansısa formada Azərbaycanı Ermənistan, yaxud İranla toqquşdurmaq niyyətindədir. ABŞ öz nümayəndəsini regiona göndərərək bu meyillərin qarşısını almağa çalışır. Eyni zamanda bölgədə öz ağırlığını göstərməyə çalışır. Düzdür, ABŞ sülh prosesində birbaşa iştirak etmir və Brüsseli dəstəkləyir. Ancaq bunun özü Vaşinqtonun sülh tərəfdarı olduğunu göstərir. Əgər ABŞ və ya Aİ prosesi irəli apara bilsə, sülh sazişinin imzalanmasına nail olsa, bölgədə Rusiyanın təsiri azalacaq. Moskvanı da qorxudan budur".

İsmayıl Qocayev

# Xınalıq kənd sakini ingiliscə danışaraq məşhurlaşdı

## İbrahim Zeynalovu İngiltərəyə oxumağa göndərəcəklər

**MÜSİAD Azərbaycan və MÜSİAD İngiltərə ingiliscə danışaraq məşhurlaşan Xınalıq kənd sakini 13 yaşlı İbrahim Zeynalovu İngiltərəyə oxumağa göndərəcək.**



Bu haqda MÜSİAD-dan daxil olan məlumatda deyilir. Məlumatda qeyd olunur ki, hazırda İ.Zeynalovun səfəri üçün lazımi tədbirlər görülür. "MÜSİAD Azərbaycan olaraq MÜSİAD İngiltərə ilə birgə balaca həmyerlimizin dil qabiliyyətini daha da təkmilləşdirmək üçün İngiltərəyə yay məktəbinə göndərəcəyik" - deyə məlumatda bildirilir.

*Qeyd edək ki, İ.Zeynalov Qubanın ucqar dağ kəndlərindən olan Xınalıqda doğulub və o, hazırda valideynləri ilə orada yaşayır. Məlumat üçün bildirək ki, sosial şəbəkələrdə Qubanın Xınalıq kəndindən olan İbrahimin polşalı turistlə kənd haqqında maraqlı söhbəti yayılıb. 13 yaşlı İbrahim sinifdə "ingilis dili çempionu" olduğunu bildirib. O, Türkiyədə oxumaq istədiyini, orada dostunun yaşadığını da bildirib.*

Güneyin səsi



# "Tudə"nin şərəfli tarixi

## Partiya ilk günlərdən xalqa zülm edənlərə qarşı barışmaz olub

**1941-1943-cü illərdə İranda qalmış faşist ünsürlər SSRİ-yə hərbi yüklər göndərilən limanlarda, dəmir yolu və şose yollarında təxribatla məşğul olurdular. O dövrdə İranı hər hansı imperializmdən daha çox Hitler Almaniyası tərəfindən olan təhlükə hədələyirdi. 1941-ci il avqustun 25-də müttəfiq qoşunlar İrana daxil olandan sonra da Berlin radiosu və İranın faşistpərəst partiyaları İranda faşizm təbliğatı aparırdılar.**

Xarici qüvvələr İrana daxil olduğu gündən İran və Azərbaycan azad xalqları SSRİ ilə dostluğa və əməkdaşlığa böyük əhəmiyyət verir, faşizm əleyhinə şiddətli mübarizə aparırdılar. İran və Azərbaycan xalqlarının faşizm əleyhinə mübarizəsinə İran Tudə Partiyası (İTP) rəhbərlik edirdi.

Partiyanın əsasını dövrün mücahidləri Seyid Cəfər Pişəvəri, Süleyman Mirzə, İ.İsgəndəri qoyub. S.Mirzənin tapşırığı ilə partiyanın ilk müvəqqəti məramnaməsinin layihəsini hazırlamaq və yazmaq işi S.C.Pişəvəriyə və İrəc İsgəndəriyə həvalə olunur. Partiyaya ilk özəyinin başçısı kimi Süleyman Mirzənin namizədliyi qəbul olunur. Əslində məramnamənin yazılmasında Əbdülqədir Azad da iştirak etməli idi. Lakin Alman faşizmi ideyalarına müsbət meyl göstərdiyinə görə Əbdülqədir Azad məramnamənin hazırlıq mərhələsində bu işdən uzaqlaşdırılıb.

İran Xalq Partiyasının ("Tudə") ilk məramnaməsində ölkədə diktatura və istismar əleyhinə mübarizə, ölkənin istiqlaliyyətinin qorunması, demokratiya və azadlıqların bərpa edilməsi, sülhün qorunması və s. bu kimi tələblər irəli sürülmüşdü. 1942-ci ildə az bir müddət içərisində Tudə üzvlərinin sayı və partiyanın coğrafi məkanı genişləndi. O, özək təşkilat statusundan müstəqil partiya statusuna yüksəldi. 1942-ci il oktyabr ayının 9-da (17 mehr 1321) Tehranda F.Keşavərzin evində Tudənin ilk konfransı keçirilib. Konfransda partiyanın müvəqqəti məramnaməsi yenisi ilə əvəz olunub. Bu məramnamədə bir sıra məsələlər tam kommunist mövqeyindən qoyulduğuna görə S.C.Pişəvəri onlarla razılaşmamış və özünün milli-demokrat mövqeyinə sadiq qalıb. Bu səbəbdən də Tudənin I konfransında Tudənin rəhbərliyinə seçilmiş 15 nəfər üzv arasında S.C.Pişəvərinin adı qeyd olunmayıb. Tudənin məramnaməsində "bütün dünya proletarları birləşin!" şüarı S.C.Pişəvəriyə görə "İranın demokratik və milli qüvvələri birləşin!" şüarı ilə əvəz olunmalıydı. Tudənin məramnaməsində hakimiyyətə keçən zaman "proletar diktaturası" dövlət idarəçiliyi forması kimi irəli sürüldüyü halda, S.C.Pişəvəri tərəfindən "demokratik və milli qüvvələrin diktaturası" şüarı irəli çəkilir. "Sol"çu tudəçilərin fikrincə, partiya fəhlə və zəhmətkeş kəndlilərin birliyinə (ittifaqına) söykənməli idi.

Tarixçi Əkrəm Rəhimlinin məqaləsinə istinadən qeyd edək ki, Tudənin üzvlüyündən və rəhbər özəkdən uzaqlaşan S.C.Pişəvəri öz mübarizəsini mətbuat sahəsində davam etdirmək qərarına gəlir. Bununla bağlı o, 1943-cü ilin aprel ayının 6-da dövlət orqanlarına müraciət edir və müstəqil "Ajir" qəzetini çıxarmaq haqda dövlətdən rəsmi icazə alır. "Ajir"in ilk sayı 24 may 1943-cü il tarixində işıq üzü görür. "Ajir" qəzeti nəşrə başladığı ilk gündən ölkədə hökm sürən diktatura əleyhinə, azadlıq və demokratiyanın bərpa olunması uğrunda ardıcıl mübarizə aparmaqla yanaşı İran Xalq Partiyasının ideoloji səhvləri haqda da yazmaqdan çəkinməmişdi. O, partiyanın şüarlarında və hərəkət xəttindəki (platformasındakı) bir sıra məqamların və şərtlərin İranın ozamankı siyasi-ictimai mühitində həyata keçirilməsinin mümkünsüzlüyünü partiya yaranan gündən dönə-dönə qeyd etmişdi.

S.C.Pişəvərinin "Ajir" qəzetində çap etdiyi məqalədə və xatirələrindən məlum olur ki, Tudə xalqın mübarizəsinə istiqamət vermək və ona başçılıq etmək məqsədilə yaradılıb. Tudə fəhlə-kəndli ittifaqı ilə yanaşı demokratik və milli qüvvələrin birliyinə söykənməli idi. Amma partiya sosializmin mənafeyini hər şeydən yüksək tutaraq yerlərdə antifaşist komitələri yaratdı. Öz mətbuat orqanlarından əvvəl Tehran, Rəşt, Təbriz və Ərdəbildə antifaşist qəzetlər nəşr etdi. 1942-ci il fevralın 1-dən Tehranda "Mərdom" adlı ümumiran antifaşist qəzetinin nəşr olunması ilə faşizm əleyhinə mübarizə daha mütəşəkkil xarakter aldı. 1942-ci ilin yazında Təbrizdə Azərbaycan antifaşist cəmiyyəti yarandı. 1943-cü ilin ortalarına qədər Ərdəbil, Marağa, Urmu, Sarab və Əhər şəhərlərində antifaşist cəmiyyətin komitələri və klubları təşkil olundu. Təbriz və Ərdəbildə Azərbaycan dilində "Yumruq" adlı antifaşist qəzet nəşr edilməyə başladı. Antifaşist cəmiyyət, faşizmin bütün xalqların azadlıq və mədəniyyətinin düşməni olduğunu kütlələrə çatdırırdı. Bu cəmiyyət fəhlələri, yükləyici və sürücüləri, SSRİ-yə göndəriləcək malları və sürsatı daha tez və daha çox göndərməyə çağırırdı. İTP-nin antifaşist mübarizəsinin əhəmiyyətini qeyd edərək "Azərbaycan" qəzeti belə yazıb: "İran Tudə Partiyasının məxsusən faşizm əleyhinə apardığı mübarizəsini biz həmişə iftixarla xatırlamalıyıq".

Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsinin sədri Adilə Çernik Bülənd isə iki il əvvəl "Tudə" partiyasının 80 illiyi ilə əlaqədar tədbirdə öz çıxışına bu sözlərlə başlayıb:

"İran Tudə Partiyasının mütərəqqi və humanist ideallarının və məqsədlərinin çox da uzaq olmayan bir gələcəkdə gerçəkləşəcəyinə habelə ölkə xalqlarının zülm və istibdad zəncirindən qurtulacağına şübhəm yoxdur.

Mənim siyasi ömrüm İran Tudə Partiyasının yaranması ilə başlayır. 10 yaşında ikən partiyanın üzvü olan anamla birlikdə Ərdəbil şəhərində partiya özəklərində iştirak edirdim. Şəhərdəki danışılan sözlərin həqiqətini axtarmaq mənim marağımda idi. Ərdəbildə işsizlik, yoxsulluq, korrupsiya və hökumət məmurlarının zorakılığını görəndə o sözlər ürəyimə yatırdı. Mən cəmiyyəti dəyişdirmək və insanların xoşbəxtliyi üçün bir yol axtarırdım.

Seyyid Cəfər Pişəvərinin rəhbərliyi ilə Azərbaycan Demokrat Firqəsi yaranarkən özümü o yolun yolçusu gördüm. Dərhal firqə sıralarına qoşularaq istək və arzularımı həyata keçirmək üçün əlimdən gələni etdim. Firqə ideyalarını yerinə yetirmək üçün gecəgündüzüm yox idi və lazım olan yerə gedirdim, izdihamlı cəmiyyət içində təbliğ və mühazirələr oxuyurdum. Yeniyetməlik enerjisi və insanlara olan marağım içimdə təsəvvür edilə bilməyəcək bir güc yaratmışdı. Hətta özümü təhlükədən qorumaq üçün firqə məsulları mənə silah veriblər".

Çernik Bülənd həmçinin əlavə edib ki, İran Tudə Partiyası və Azərbaycan Demokrat Firqəsi həm inqilabi, həm də mütərəqqi ideyalarına və apardıqları ortaq mübarizələrinə görə şərəfli bir tarixə malikdir: "İlk günlərdən İran Tudə Partiyası, İran xalqına zülm edən amillərlə barışmaz olduğunu bəyan etdi. İran Tudə Partiyası, təkamülün və tərəqqinin əsas düşmənləri habelə ölkənin inkişafına mane olan faşizmi, imperializmi, irticanı əsas düşmən olaraq ifşa etdi. Xalq əleyhinə olan bu qüvvələrə qarşı mübarizə etməyi əsas məqsəd olaraq qarşısında qoydu. Fikrimcə, İran Tudə Partiyasının əhəmiyyəti habelə davamlılığı onun dünya görüşündə və mütərəqqi proqramlarında nəzərə alınmalıdır. İran Tudə Partiyası, ölkədə yeganə siyasi partiya olaraq ABŞ imperializminin neo-müstəmləkəçilik mahiyyətini dərk etmişdi. Bu, ABŞ-nin özünü xalqımızın müdafiəçisi və simpatiyası kimi göstərməyə çalışdığı vaxt idi. İran Tudə Partiyası Amerika imperializminin yırtıcı təbiətini ifşa etməklə yanaşı, ölkə ictimaiyyətinə vətənimizi qarət və talan etməkdə mənfur Britaniya imperializminin ortağı kimi təqdim etdi. O günlərdə bir çox mütərəqqi və milli qüvvələr Amerika imperializminin mahiyyətini tanımaqda yanılaraq partiyanın ABŞ haqqında yürütdüyü mühakiməsinə inanmırdılar. Onlar yalnız illər sonra acı təcrübələr nəticəsində bu inanca gəliblər.

İran Tudə Partiyası, daxili və xarici düşmənlərinin törətdikləri bütün problemlər və maneələrinə baxmayaraq, böyük dəyişikliklərin mənbəyinə çevrildi. Halbuki o dövrün perspektivindən baxarsaq, bu iş mümkünsüz görünür.

Tudə Partiyası, Rza Şahın 20 illik diktaturası ilə zəifləyən İran ictimaiyyətini səfərbər edərək ayağa qaldırıb.

Partiya yarandığı ilk günlərdən etibarən mübarizədə qüvvələrin birliyinə ehtiyac olduğunu vurğulayıb. Bəzi fərqliliklərdən asılı olmayaraq müştərək düşmənin məğlubiyyətini asanlaşdırmaq üçün mübarizənin ümumi məqsədlərinə diqqət yetirərək bütün mütərəqqi qüvvələri və demokratik təşkilatları birliyə çağırıb.

Minlərlə kitab, jurnal, elmi-mədəni məqalə yazmaq, tərcümə və nəşr etməklə bilik və mədəniyyətin inkişafı üçün praktiki tədbirlər görən, habelə ölkənin mədəni ictimaiyyətini dəyişdirən təşkilat, İran Tudə Partiyası idi. İranda yaşayan insanların xalqların ən məşhur elm, mədəniyyət və incəsənət xadimlərindən bir çoxu İran Tudə Partiyasınının qucağında tərbiyə almış, yaxud partiyaya üzv olmuş və ya yaradıcılığının uzun illərini o partiyada keçiriblər.

Tudə Partiyası ölkədə bütün xalqlar və dinlərin bərabər hüquqluğunu öz proqramında elan edib. Ölkədə yaşayan bütün xalqların milli hüquqlarından müdafiə edib. Azərbaycan və Kürd xalqının öz hüquqlarını əldə etməsində və milli hökumətlərini qurmaqda həlledici rolu olub. Bu yolda onlarla hərbi və mülki kadrları öz canlarını qurban verib. Tudə Partiyası iranlı zəhmətkeşlərin mübarizə hərəkatını dünya zəhmətkeşlərinin inqilabi hərəkatı ilə əlaqələndirən, İran xalqının beynəlmiləlçi ruhunu yüksəldən partiyadır. Bu mübarizələr və onların böyük uğurları dünya və daxili irticanı dəhşətə gətirdi. Tudə Partiyasına çox sui-qəsdlər və digər milli-mütərəqqi qüvvələrə qarşı həyata keçirildi. Lakin hər cür yalan ittihamlar və uydurmalar partiyanın proqramlarının gedişatının qarşısını dayandıra bilməzdi. Bu səbəbdən ABŞ, habelə İngiltərə, sarayın və irticaçı qüvvələrin həyata keçirdikləri qanlı çevrilişləri etiraf etdilər".

Qeyd edək ki, 1332-ci ilin 28 mordad ayının (avqust 1953 -cü il) dövlət çevrilişinə və partiyanın habelə digər milli-mütərəqqi qüvvələrin qanlı repressiyalarına baxmayaraq, İran Tudə Partiyası şəhər və kənd zəhmətkeşləri ilə bağladığı əhdinə sadiq qalıb. Bu çevrilişdən sonra Pəhləvi rejimi devrilənə qədər bütün qaranlıq illərdə zəhmətkeşlərlə mübarizəni və təşkilatçılığı davam etdirib. 1979-cu ilin fevral ayındakı şanlı anti-monarxiya inqilabının zəfərini möhürləyib.

Bəhmən inqilabından sonra da Tudə Partiyası inqilabın nailiyyətlərini və xalq ideyalarını qoruyub genişləndirmək üçün bütün gücü ilə mübarizə aparıb. Təəssüf ki, mürtəce qüvvələr Bəhmən inqilabının əldə etdiyi nailiyyətlərə vəhşicəsinə hücumu çox çəkmədi. Tudə Partiyası, digər inqilabi qüvvələr və həmkarlar ittifaqlarının üzvlərinin bir çoxu rejim tərəfindən tutularaq şəhid edilib. İnqilabın uğurları bir-birinin ardınca tapdalanıb. Bütün çatışmazlıqlarına baxmayaraq, inqilabın uğurları sayılan konstitusiyanın məşhur prinsipləri yaddan çıxarılıb. Vəli-Fəqih, Allahın nümayəndəsi olaraq, işçilərin və zəhmətkeşlərin zəhmətlərinin meyvələrini, həmçinin ölkənin sərvətlərini talan etmək üçün talançıların əllərini açıq qoyub. Demək olar ki, Tiran hökmranlıq edib. İctimaiyyətdə işsizlik, bahalıq, fahişəlik, narkomaniya və onlarla digər sosial problemlər cəmiyyəti narahat edib.

Anti-insani qüvvələrinin hökmranlığından sonra, bu dəfə də ölkənin ən böyük və təsiredici siyasi qüvvələrindən biri olan Tudə Partiyası İran xalqının and içmiş düşmənlərinin hücum hədəfinə çevrilib. Ölkənin minlərlə ən gözəl övladları və elm adamları orta əsr işgəncə otaqlarında vəhşicəsinə işgəncə olunublar. Çoxları edam edilərək gizli şəkildə kütləvi məzarlıqlarda basdırılıb.

**Şəymən**

# Silah-sursatın daşınmasına son qoyulmalıdır

## Bakı həm Rusiyanı, həm də Qərbi məlumatlandırmalıdır

**"Azərbaycan ermənilərlə təmasları iki ssenari ilə nəticələndirmək istəyir. Birincisi, ermənilər Azərbaycan Konstitusiyasının legitimliyini tanıyıb, vətəndaş kimi vəzifələr və öhdəliklərini icra etməlidirlər. İkincisi, əgər kiməsə bu xoş deyilsə, Azərbaycan ərazisini tərk etməlidir. Yox, qalıb müqavimət göstərmək istəyirsə, o zaman hüquqi cəzalanmanın predmeti kimi nəticələrə hazır olmalıdır".**



**Ermənilər Azərbaycanın təhlükəsizliyinə qarşı "qırmızı xət"ləri keçsə, prosesə hərbi müdaxilə ilə cavab veriləcək**

*Bu sözləri siyasi şərhçi Aqşin Kərimov deyib. Analitik bildirib ki, Bakı bu tələbləri ən üstün şərtlər çərçivəsində ermənilərə çatdırır:* "Xocalıda Azərbaycan nümayəndələri ilə ermənilər arasındakı görüş də bunun bariz nümunəsidir. Bu görüşdən sonra Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərindəki erməni separatçıların başçısı Araik Arutyunyan ah-nalə çəkərək nəticələrə hazırlıq məşqini başlatdı. Arutyunyan öz "komandası" ilə keçirdiyi görüşdə ermənilərin " ya olum, ya ölüm" seçimi arasında qaldıqlarını diqqətə çatdırıb. Onun mesajının məğzi belədir ki, ermənilər ya Azərbaycanın bayrağı altında yaşamağı seçməli, ya da "mübarizə"ni davam etdirməlidirlər. Birinci variant elə məqbuldur. İkinci seçim isə separatçılar və onları dəstəkləyən erməni sakinlər üçün cəzalanma aktını qaçılmaz edir. İkinci bir tərəfdən, Arutyunyan həm Rusiya, həm də Qərbdən dəstək gözləyir, ancaq son hədd anında onların köməyinə heç kim gəlməyəcək".

**Ekspert vurğulayıb ki, Arutyunyan özlüyündə "mübarizə ruhu" illüziyasını yaratmalıdır:** "Çünki onun özü də Azərbaycanın nələrə qadir olduğunu gözəl başa düşür. Bununla belə, Arutyunyan erməni icmasının yaralarına məlhəm olan açıqlamalar vermək məcburiyyəti ilə qarşı-qarşıyadır, çünki Bakının şərtləri qəti və dəyişməz olaraq qalır. Başqa qüvvələrin əlində alət olan ermənilər vasitəsilə Qarabağda təxribatları körükləmək məqsədlərinə fokuslanmalıyıq. Qarabağdakı erməni amili Rusiya və Qərbi birləşdirən dəyərə çevrilir. Hərçənd ki, hərəsinin öz yanaşması var. Belə olan halda Qarabağa Ermənistan ərazisindən Laçın yolu vasitəsilə silah-sursat daşınması erməni amili ilə oyun qurmaq istəyənlərin arzularının tərkib hissəsi kimi başa düşülməlidir. Azərbaycan həm Rusiyaya, həm də Qərb dairələrinə çatdıra bilər ki, bu hal Azərbaycanın təhlükəsizliyinə qarşı "qırmızı xət"ləri keçsə, prosesə hərbi müdaxilə ilə cavab veriləcək".

**İsmayıl**

# Xaricdə təhsil alanların qazanc yeri yoxdur

## AZAL ən azı Türkiyə istiqamətinə bilet qiymətlərini endirməlidir




**Xaricdə oxuyan tələbələrin biletlərin baha olması səbəbindən ölkəyə qayıda bilməməsi uzun müddətdir gündəmdə olan məsələdir. Pandemiya səbəbindən quru sərhədləri bağlı olduğu üçün xarici ölkələrə gediş-gəliş sadəcə hava nəqliyyatı ilə həyata keçirilir. İctimaiyyət üzvlərinin, valideynlərin çoxsaylı təkliflərinə rəğmən AZAL xaricdə oxuyan tələbələrə yol xərcində güzəşt etməyib.**

Qeyd edək ki, dövlət proqramı ilə xaricdə təhsil alan tələbələrin yol xərcini dövlət ödəyir. Amma bütün tələbələr xaricdə dövlət proqramı ilə təhsil almır axı. Türkiyədə baş verən zəlzələ zamanı azərbaycanlı tələbələrin tətil müddətində o ölkədə qalmasının əsas səbəbi kimi təyyarə biletlərinin baha olması göstərildi. Zəlzələdə həlak olan tələbələrin valideynləri də mətbuata açıqlamalarında təyyarə biletləri baha olduğundan tələbə övladlarının tətil müddətində Vətənə gələ bilmədiklərini söyləyib. Tətil müddətində bilet almağa maddi imkanı çatmayan tələbələrin nəşini isə onlar dağıntılar altında qalaraq həyatlarını itirdikdən sonra AZAL Vətənə pulsuz gətirdi.

*Məsələnin aktuallığına diqqət çəkən millət vəkili Fazil Mustafa problemi yenidən Parlamentdə gündəmə gətirib:* "Biz ötən dəfə də çıxışımızda Azərbaycan Hava Yollarının (AZAL) təyyarə qiymətlərinin azaldılması ilə bağlı məsələ qaldırmışdıq, amma hələ də nəticə yoxdur. Qiymət bahalığına görə tələbələrimiz tətilə gələ bilmədilər, zəlzələdə həyatlarını itirdilər". Deputatın sözlərinə görə, AZAL bilet qiymətlərini özü istədiyi kimi müəyyənləşdirir: "Belə olan halda tələbələr əziyyət çəkir. Heç olmasa tələbələr üçün güzəştlər olmaldıır. Tələbələrin quru sərhəddən keçməsi üçün şərait yaradılmalıdır. Tələbələrimizin vəziyyəti çox acınacaqlı durumdadır. Bu vəziyyətdə Ombudsman nə edə bilər?".

İqtisadçı-ekspert Asif İbrahimov "Şərq"ə açıqlamasında bildirib ki, ölkəmizdə aviasərnişin daşımalarını həyata keçirən şirkətlərin bilet qiymətləri həddindən artıq bahadır. Gürcüstanla müqayisədə 4, Türkiyə ilə müqayisədə 2 dəfə fərq var.

Ekspertin sözlərinə görə, hər hansısa bir məhsulun baha olması onun maya dəyərinə çəkilən xərcin çoxluğu ilə bağlıdır: "Aviabiletlərin baha olması isə paradoksdur. AZAL isə hər ili zərərlə bağladığı üçün dövlət tərəfindən dotasiya ayrılır, üstəlik, yanacaq pulunu belə dövlət ödəyir. Buna rəğmən AZAL zərərə işlədiyini qeyd edərək, bilet qiymətləri ilə bağlı heç bir güzəşt etmir".

A.İbrahimov həmçinin deyib ki, bir çox ölkələrdə təyyarə biletlərinin qiymətində tələbələrə müəyyən güzəştlər tətbiq olunub. AZAL bu istiqamətdə müəyyən tədbirlər planı hazırlamalı və tələbələrlə bağlı hər hansısa tarif tətbiq olunmalıdır. Bu tarif AZAL-ın büdcəsinə elə də ciddi təsir etməyəcək.

**Təhsil eksperti Kamran Əsədov da hesab edir ki, AZAL-ın qiymətlərinin baha olması tələbələrə çətinlik yaradır. Bu səbəbdən xaricdə təhsil alan tələbələrə bilet pullarında güzəştlər tətbiq edilməlidir: "Dünya təcrübəsində bu var.**

Xaricdə təhsil alan tələbə həm kirayə pulu verir, həm təhsil haqqı ödəyir, həm də yolpulu ödəyir. Bu da onun üçün müəyyən çətinliklər yaradır. Üstəlik, tələbələrin qazanc yeri yoxdur. Onlar xaricə təhsil üçün gedirlər. Biz də çalışmalıyıq ki, xaricə təhsil üçün gedən gənclərə dəstək olaq. AZAL ən azı Türkiyə istiqamətinə bilet qiymətlərini endirməlidir. Türkiyə hökuməti, "Türk Hava Yolları" zəlzələ baş vermiş ərazidə ciddi şəkildə qiymətlərdə endirim etdi. Hesab edirəm ki, "Azərbaycan Hava Yolları" da bu istiqamətdə mütləq şəkildə addım atmalı, qiymətləri ciddi şəkildə aşağı salmalıdır. Ən əsası isə quru sərhədlər mütləq açılmalıdır".

**Şəymən**

# Azərbaycanın potensialı kifayət qədər böyükdür

## Ölkəmiz artıq Avropa bazarına həm innovativ məhsullarla, həm də enerji məhsulları ilə daxil olacaq

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi;**

**Azərbaycanda bərpaolunan enerjinin istehsalı üçün böyük potensialın olması bu sahədə mühüm layihələrin həyata keçirilməsinə zəmin yaradır. Təsadüfi deyil ki, ”Azərbaycan 2030”: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də ölkəmizdə ”yaşıl enerji” istehsalının genişləndirilməsi məsələsi də əhəmiyyətli yer alıb. Hədəf ümumi enerji istehsalı gücündə bərpaolunan enerjinin payını 2025-ci ildə 24, 2030-cu ildə isə 30 faizə çatdırmaqdır.**

Bu istiqamətdə mühüm addımlar atılır. Azərbaycanın uzunmüddətli, dayanıqlı, ucuz və ekoloji cəhətdən təmiz enerji növləri ilə təmin edilməsi prosesinə xarici investorlar da həvəs və inamla qoşulublar. Bu ilin yanvar ayında Səudiyyə Ərəbistanı Krallığının ”ACWA Power” şirkəti tərəfindən inşa ediləcək 240 MVt gücündə ”Xızı-Abşeron” Külək-Elektrik Stansiyasının tikintisinə start verilib. Daha sonra, martın 15-də Birləşmiş Ərəb Əmirliklərinin ”Masdar” şirkəti ”Qaradağ” Günəş-Elektrik Stansiyasının təməli qoyulub. Külək elektrik stansiyasının tikintisinin aparılacağı yerlərdə - Pirəkəşkül və Sitalçayda artıq 6 ədəd külək ölçü-müşahidə stansiyası quraşdırılıb. Layihənin ətraf mühitə və sosial sahəyə təsirlərinin qiymətləndirilməsi aparılır. Günəş-Elektrik Stansiyasının inşa olunacağı ərazidə də ətraf mühitə və sosial sahəyə təsirlərin qiymətləndirilməsi ilə bağlı tədqiqatlar davam etdirilir. Stansiyaların elektrik enerjisi şəbəkəsinə qoşulması üçün investorların 3 yeni yarımstansiya tikməsi planlaşdırılır. Bu stansiyalar hesabına ümumilikdə ildə təxminən 1,4 milyard kilovat-saat elektrik enerjisinin istehsalı, 300 milyon kubmetrdən çox təbii qaza qənaət edilməsi, 600 min tona yaxın karbon qazı tullantısının azaldılması gözlənilir. Həmçinin Prezident İlham Əliyev işğaldan azad edilmiş əraziləri, 10 min kvadratkilometr ərazini ”yaşıl enerji” zonası elan edib. Ölkə başçısının bununla bağlı müəyyən etdiyi iqtisadi inkişaf kursunda bu ərazilərin ”yaşıl enerji” zonasına çevrilməsi əsas istiqamətlərdən biri hesab olunur. Dövlət başçısının 2021-ci ildə imzaladığı Sərəncamın icrası istiqamətində Yaponiyanın TEPSCO şirkəti ilə əməkdaşlığa başlanılıb və müvafiq Konsepsiya sənədi hazırlanıb. Konsepsiyanın məqsədi işğaldan azad edilmiş ərazilərdə mövcud olan yüksək bərpa olunan enerji potensialından istifadə etməklə ərazini ekoloji cəhətdən təmiz yaşıl enerji ilə təmin etmək və ekoloji cəhətdən təmiz və enerji səmərəliliyinə malik yaşıl texnologiyaların tətbiqi perspektivlərini araşdıraraq təkliflər formalaşdırmaqdır. Bunun üçün müxtəlif ssenarilər tətbiq edilməklə ərazilərin enerji tələbatı modelləri hazırlanıb. Beləliklə, qeyd etmək olar ki, ötən ilin sonunda ölkədə alternativ enerji sahəsində yeni genişmiqyaslı kampaniyaya start verilib. Artıq yaxın illərdə ölkənin elektroenergetikasının əlavə güc və kilovatt qazanacağı faktı bir tərəfdən ölkənin artan elektrik enerjisi tələbatını ödəyəcəyinə, digər tərəfdən isə ixrac həcmini artıracağına şübhə yeri qoymur. Almaniyanın ”Kaiserwetter Energy Asset Management” şirkəti də alternativ enerji mənbələri ilə işləmək və bərpa olunan



enerjiyə keçid prosesindəki enerji sistemləri haqqında informasiyanın təqdim olunması üçün nəzərdə tutulan bulud servisləri əsasında yeni platformanın uğurla istifadəyə verildiyini elan edib. Beynəlxalq enerji şirkəti olan ”Enel” bərpaolunan enerji sahəsində modernizasiya proqramını açıqlayıb. Təşəbbüs çərçivəsində şirkət rəqəmsal transformasiya və ağıllı enerji şəbəkələrin avtomatlaşdırılması ilə bağlı vəzifələrin həlli üçün 13 milyard dollardan çox vəsait ayıracaq.

Xatırladaq ki, ötən ay Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası nazirlərinin 9-cu və Yaşıl Enerji Məşvərət Şurası nazirlərinin 1-ci iclasları keçirilib. İclas çərçivəsində Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında saziş imzalanıb. İclasda enerji təchizatı və tranzit marşrutlarının şaxələndirilməsi üçün yaşıl enerji layihələrinin həyata keçirilməsinin strateji əhəmiyyət daşıdığı vurğulanıb. Mövcud bərpaolunan enerji potensialından istifadəni genişləndirmək və yaşıl elektrik enerjisi ticarətini inkişaf etdirmək məqsədilə dörd ölkə arasında əməkdaşlığın gücləndirilməsinin vacibliyi qeyd edilib. Yaşıl enerjinin Xəzər dənizindən Avropaya ötürülməsi ilə bağlı məsələlərin koordinasiyalı şəkildə yerinə yetirilməsi üçün İşçi qrupunun yaradılması razılaşdırılıb. Sonda iclasın yekunlarına dair Protokol imzalanıb.

Dünən Bakıda işə başlayan ”Dünya bu gün: Çağırışlar və ümidlər” mövzusunda X Qlobal Bakı Forumunda ”yaşıl enerji” məsələsi gündəmə gətirilib. Dövlət başçısı İlham Əliyev çıxışında qeyd edib ki, Azərbaycan yaşıl hidrogen ixrac etməyi planlaşdırır. Beynəlxalq Maliyyə Korporasiyasının Xəzər dənizində külək potensialının yekun qiymətləndirməsini apardığını söyləyən dövlət başçısı bildirib ki, bu potensial 157 qiqavat təşkil edir. Azərbaycan Prezidenti qeyd edib ki, yaşıl enerjiyə keçid sürətlə gedir. Digər çıxış edən bəzi qonaqlar da yaşıl enerjinin əhəmiyyətindən danışıblar.

**Millət vəkili Vüqar Bayramov ”Şərq”ə açıqlamasında bildirib ki, Azərbaycan Avropa bazarına yalnız ənənəvi enerji məhsulları deyil, eyni zamanda ”yaşıl enerji”, yaxud alternativ mənbələrdən əldə edilən enerji ilə də çıxacaq. Deputat vurğulayıb ki, ötən il Avropa İttifaqı ilə bağlanmış anlaşmaya əsasən, Azərbaycan alternativ mənbələrdən əldə etdiyi enerjini Gürcüstan və Qara dəniz vasitəsilə Rumıniya və Macarıstana ixrac edəcək:** ”Yalnız ənənəvi deyil, eyni zamanda bərpa olunan mənbələrdən enerji ixracatını həyata keçirməsi də ondan xəbər verir ki, Azərbaycan artıq Avropa bazarına həm də innovativ məhsullarla, enerji məhsulları ilə daxil olacaq. Bu da Avropanın enerji təhlükəsizliyində Azərbaycanın rolunun kəskin artmasına gətirib çıxaracaq. Azərbaycan alternativ mənbələrdən əldə etdiyi enerji hesabına da Avropanın enerji təhlükəsizliyinə xüsusi töhfə verəcək. Azərbaycanın bu sahədə potensialı kifayət qədər böyükdür. Çünki həm külək, həm də günəş enerjidən, eləcə də hidro-enerjidən istifadə imkanları var. Bütün bunlar imkan verir ki, Azərbaycan həm daxili ehtiyacını ödəsin, həm də ixraca yönəlik daha çox istehsalı həyata keçirə bilsin. Növbəti illərdə alternativ mənbələrdən əldə edilən enerji istehsalının artması, həm də Azərbaycanın Avropa bazarına yeni məhsulların daxil olmasını müşahidə edəcəyik. Təbii ki, bu, ilk növbədə Azərbaycanın dövlət gəlirlərinin artmasına səbəb olacaq. Digər yandan, Azərbaycanın geosiyasi və geoiqtisadi mövqeyinin daha da gücləndirilməsinə gətirib çıxaracaq”.

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Çıxarışsız mənzil almaq təhlükəlidir

## Vətəndaşın narahatlığı, tələskənliyi başadüşüləndir

**Azərbaycanda çıxarışsız mənzillərin satışının qadağan edilməsi təklif olunur. Bu barədə insan hüquqları üzrə müvəkkilin illik məruzəsində qeyd edilir. Məruzədə bildirilir ki, insanların mülkiyyət, mənzil və təhlükəsiz yaşamaq kimi hüquqlarının etibarlı müdafiəsi, xüsusilə tikintisi aparılan bina və qurğuların yaxınlığında, habelə təmas sahəsində yerləşən evlərdə yaşayan sakinlərin təhlükəsizliyinin təmini, ətraf mühitin çirkləndirilməsinə qarşı mübarizənin genişləndirilməsi məqsədilə aidiyyəti dövlət qurumları tərəfindən qabaqlayıcı tədbirlərin görülməsi, xüsusilə bu sahəyə nəzarətin gücləndirilməsi neqativ halların qarşısının alınmasında böyük əhəmiyyət daşıyır.**

Sirr deyil ki, Bakı və Bakıətrafı qəsəbələrdə sənədsiz, o cümlədən çıxarışsız mənizllər, fərdi evlər həddindən artıq çoxdur. Həmçinin paytaxtda və kənar ərazilərdə inşa edilən çoxmərtəbəli yaşayış binalarındakı mənzillər də tikinti şirkətləri tərəfindən çıxarış olmadan, adətən müqavilə əsasında satılır. Bu isə sonradan sakinlərin bir çox problemlərlə üzləşməsinə, hətta ödəniş etdikləri mənzillərin əllərindən çıxmasına səbəb olur. Tikinti şirkətlərinin bir mənzili bir neçə müştəriyə satması halları da indiyədək çox yaşanıb. Bu cür əməllərinə görə cinayət məsuliyyətinə cəlb edilənlər də var. Lakin problem hələ də həllini tapmır. Əlaqədar qurumlar günahı bir-birinin üzərinə atmaqla məşğuldur. İcra hakimiyyəti bələdiyyəni, bələdiyyə Dövlət Əmlak Komitəsini, Əmlak Komitəsi Nazirlər Kabinetini, ARDNŞ-i də neft quyularının, kommunikasiya xətləri keçən ərazilərin xəritəsini təqdim etməməkdə təqsirləndirirlər. Yəni hər kəs bir-birini suçlu çıxarmağa çalışır, nəticə isə bu olur ki, çıxarışlar ortaya çıxmır. Əhali illərdir ”sənədsiz-sübutsuz” yaşamaqda davam edir. Ombudsmanın illik məruzəsində toxunulan məsələ çox ciddidir. Nəzərə alaq ki, çıxarışsız mənizllər, yaşayış binalarının təhvil-təslim aktı olmadan, bütün aidiyyəti qurumların rəsmi razılığı alınmadan istismara verilməsi məsələsi qardaş Türkiyədəki dağıdıcı zəlzələdən sonra daha da aktuallaşıb. Yaşayış binalarının seysmik zonalara uyğun zəlzələyə davamlı tikilib-tikilməməsi sual altındadır. İnşaat zamanı layihə-smeta sənədlərindən kənara çıxılıbmı, binada dirəklər sökülübmü, təhlükəli müdaxilələr varmı, hazırda sakinləri bu suallar düşündürür. Amma mənzillərin bir çoxunun çıxarışının olmaması hüquqi addımların atılmasının da qarşısını alır. Əgər ombudsmanın təklif etdiyi kimi çıxarışsız binalardan mənzil satışına qadağa qoyulursa, bu, nəyi dəyişəcək?



*"Çıxarışlı mənzillərlə çıxarışsız mənzillərin arasında qiymət fərqi olur. Vətəndaş da ucuz başa gəlsin deyə, çıxarışsız mənzillərə üstünlük verir"*

**Konstitusiya Araşdırmaları Fondunun rəhbəri, hüquqşünas Əliməmməd Nuriyev bildirdi ki, çıxarış ilk növbədə şəxsin mülkiyyət hüququnu təsdiqləyən rəsmi sənəddir. Mənzilin çıxarışı varsa, vətəndaş onun hüquqi mülkiyyətçisi hesab olunur.** Əlbəttə, çıxarışlı mənzil almağı hər kəs istəyər, çünki bu, etibarlılıq, konkret mülkiyyətə sahiblik deməkdir. Amma çox zaman bu, mümkün olmur. O səbəbdən ki, tikinti şirkətləri binanın özülü qoyulan andan mənzilləri satışa çıxarırlar. Hələ bilinmir, bina tikiləcək, tikilməyəcək, möhkəmdir, möhkəm deyil, çaxarış veriləcək, ya yox, amma satış başlayır, insanlar da yatırım edir, çünki tikinti şirkətləri inşaat işlərinin davam etməsi üçün maliyyəyə ehtiyac olduğunu deyirlər. İnsanlar da ödəniş edir, təki bina qısa zamanda tikilib istifadəyə verilsin. Çox zaman təbii qaz, su çəkilmədən insanlar yeni binaya köçüb yaşamağa başlayır. Problemlərsə sonradan baş qaldırır. Bu məsələləri biz dəfələrlə qaldırmışıq, bina tamamilə tikilib qurtarmadan, yaşayış üçün hərtərəfli şərait yaradılmadan, təhlükəsizliyinə zəmanət olmadan yaşayışa razılıq verilməsinə qarşı çıxmışıq. Çünki bu, insanlar üçün real təhlükədir. Bəzən binalardan birində yaşayış başlayır, onun yanındaca, binaya bitişik halda başqa bir binanın inşasına başlanılır. Bu o deməkdir ki, işlər tam başa çatmayıb, tikinti yarımçıqdır. Vətəndaşların bu cür təhlükəli vəziyyətdə yeni mənzillərə köçməsinə aidiyyəti qurumlar icazə verməməlidir. Vətəndaşın narahatlığı, tələskənliyi başadüşüləndir.

Məlumdur ki, çıxarışlı mənzillərlə çıxarışsız mənzillərin arasında qiymət fərqi olur. Vətəndaş da ucuz başa gəlsin deyə, çıxarışsız mənzillərə üstünlük verir.

*Ə.Nuriyev qeyd etdi ki, sənədsiz evlər problemi təəssüf ki, həll olunmur:*

- Bir çox səbəblər var. Elə ərazilər var ki, dövlət təyinatlı torpaqlardır, yaşayış üçün yararsız hesab edilir, yaxud yüksək cərəyanlı elektrik xətlərinin altındadır, neftlə çirklənmiş ərazilər də var. Bu məsələ aidiyyətli qurumların birgə səyi ilə həllini tapmalı, hansı ərazilər ki yaşayış üçün yararlıdır, oradakı evlər sənədləşdirilməli, təhlükəli ərazilərdənsə əhali köçürülməlidir. Prosesi sürətləndirmək mümkündür, lakin hələ də ləngimə müşahidə edilir. Mənzillərin çıxarışsız satılmasına qadağa qoyulursa, bu, müəyyən tikinti şirkətlərinin ziyanına olacaq, ümumi nəticə baxımından isə əhalinin təhlükəsizliyinə və hüquqlarının müdafiəsinə təminat əldə ediləcək. Sakin necə binada yaşadığını bilməlidir, bilməlidir ki, bu binada onun təhlükəsizliyinə təminat var, ya yox. Mənzillər çıxarışla satılarsa, vətəndaşın mülkiyyət hüququ təsdiqlənmiş olacaq, daşınmaz əmlakın sığortası da mümkün olacaq, hər hansı bir gözlənilməz hadisə, təbii fəlakət baş verdikdə də, işinə məsuliyyət yanaşanlar, səhlənkarlıq edənlər bilinəcək və cəzalanacaqlar. Hamı bilməlidir ki, mənzillərin çıxarışla satılması, sənədsiz evlərin sənədləşdirilməsi təhlükəsizlik hüquqlarının qorunması baxımından vacibdir.

**Məlahət Rzayeva**

# Məhsul əldən-ələ keçmirsə, qiyməti baha olmayacaq

## Bir yarmarkada ki kəndli əvəzinə alverçilər dayanıb satış həyata keçirəcək, o yarmarkanın bir xeyri olmaz



**Kənd Təsərrüfatı Nazirliyi tərəfindən Novruz bayramı ilə əlaqədar olaraq 11-19 mart tarixlərində "Kənddən Şəhərə" yarmarkaları təşkil olunacaq. Nazirliyin məlumatında qeyd olunur ki, yarmarkaların təşkilində əsas məqsəd bayram günlərində vətəndaşların kənd məhsullarına artan tələbatlarını yerli və sağlam məhsullarla təmin etmək və fermer təsərrüfatları üçün alternativ satış kanalı yaratmaqdır.**

"Kənddən Şəhərə" Novruz yarmarkalarında satışa çıxarılacaq məhsullar yarmarkada iştirak üçün əvvəlcədən qeydiyyatdan keçən fermerlər tərəfindən alıcılara təqdim olunacaq. Yarmarkada ümumilikdə 50 regiondan 82 fermer iştirak edəcək. Fermerlər 90-dan artıq çeşiddə kənd təsərrüfatı və qida məhsullarının satışını həyata keçirəcəklər. Satışa çıxarılan məhsulların keyfiyyətinə nəzarət etmək məqsədilə yarmarkalarda Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin Səyyar Qida Laboratoriyası fəaliyyət göstərəcək. Vətəndaşlar yarmarkada satışa çıxarılan hər hansı bir məhsulun keyfiyyət göstəricilərini öyrənmək üçün laboratoriyanın xidmətlərindən faydalana bilərlər. Qeyd edilir ki, "Kənddən Şəhərə" Novruz yarmarkalarında fermerlər heç bir ödəniş etmədən piştaxta, tərəzi, soyuducu və digər ləvazimat və avadanlıqlarla tam təchiz olunmaqla öz məhsullarını şəhər sakinlərinə təqdim edəcəklər. Məhsullarının daşınmasında çətinlik yaşayan fermerlərə isə təşkilatçı qurum tərəfindən loqistika dəstəyi göstəriləcək. "Kənddən Şəhərə" Novruz yarmarkaları aşağıdakı ünvanlarda fəaliyyət göstərəcək: Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 ("Gənclik" metrostansiyasının çıxışı) və Binəqədi rayonu, Süleyman Sani Axundov, 5B ("İnqilab" kinoteatrının yanı).

**İqtisadçı Fuad İbrahimov "Şərq"ə açıqlamasında qeyd etdi ki, əsas olan yarmarkaların təşkili deyil, məhsullarını satmaq üçün əsl fermerlərə şərait yaradılmasıdır:**

- Yarmarkalar, bilirsiz ki, illərdir ənənə halını alıb. Bəzən bir neçə yerdə, bəzənsə 1-2 yerdə yarmarkalar təşkil olunur. Əvvəlki illərlə müqayisə etsək, "Kənddən Şəhərə" yarmarkaları daha çox ünvanda təşkil olunurdu. Son zamanlar nədənsə azalıb. Kəndlilər məhsullarını şəhərə gətirə bilmir, yarmarka təşkil etmək sərf etmir, yoxsa alıcıların inamsızlığıdır, məlum deyil. Paytaxtda Kənd Təsərrüfatı Nazirliyinin "Kənddən Şəhərə" yarmarkaları olmasa belə, bayram bazarlığı etmək üçün satış məntəqələri çoxdur. Metropolitenin əksər stansiyalarının giriş və çıxışlarında satış yarmarkaları fəaliyyət göstərir. "Elmlər Akademiyası", "N.Nərimanov", "İnşaatçılar", "Əhmədli", "Xalqlar Dostluğu" Demək olar hamısında çadırlar qurulub, yerlər ayrılıb, alver gedir. Bu, yaxşıdır. O baxımdan ki, alıcı üçün seçim imkanı yaranır. Alıcı büdcəsinə uyğun bazarlıq edə bilir. Qiymətlər də münasibdir, münasib qiymətə məhsul tapmaq olur. KTN əgər "Kənddən Şəhərə" yarmarkası təşkil edirsə, ilk növbədə fermerlərin, kəndlinin öz məhsulunu birbaşa, vasitəçisiz satışa çıxarmasına yardım etməlidir. Mən həmişə bunu demişəm. Bir yarmarkada ki kəndli əvəzinə alverçilər dayanıb satış həyata keçirəcək, o yarmarkanın bir xeyri olmaz. Yarmarkada qiymətlər o dərəcədə münasib olmalıdır ki, vətəndaş buranı digər satış məntəqələrindən üstün bilsin və ora gəlsin. Buna da necə nail olmaq olar, yalnız kəndlinin öz məhsulunu yarmarkada satmasına şərait yaratmaqla. Məhsul əldən-ələ keçmirsə, qiyməti baha olmayacaq, münasib olacaq. Kəndli də gəlir əldə edəcək, vətəndaş da məmnun qalacaq. Yoxsa yarmarka təşkil et, oranı alverçilər zəbt etsin, eyni vəziyyət təkrarlanır, vətəndaş da başqa satış mərkəzlərinə üz tutur. Əhali budcəsinə uyğun qiymətə məhsul tapıb alacaq, problem yenə də kəndlinin, fermerin becərdiyi məhsuldan gəlir əldə etməməsidir.

**Mələhət Rzayeva**



# Su böhranı qapıdadır

## Qənaət rejiminə keçməyin tam zamanıdır

***"Avtoyuma məntəqələrinə nəzarət gücləndirilməlidir. Bu müəssisələr, yaşıllaşdırma idarələri texniki sudan istifadə etməlidir"***

**"Son zamanlar yaranan su qıtlığı ciddi tədbirlərin görülməsini zəruri edir. Bakı şəhərini təmin edən əsas su qaynağı Taxtakörpü su anbarında və Samur çayında suyun həcmi xeyli azalıb.**

"Azərsu" ASC bəzi ərazilərə suyun verilməsini qrafik əsasında aparır. Qrafik adətən yay aylarında - iyun ayından başlayaraq həyata keçirilirdi. Vəziyyət o qədər kritikdir ki, həmin rejim bu ildən, fevral ayından tətbiq olunur".

**Bunu "Şərq"ə açıqlamasında "Yaşıl Dünya" Ekoloji Maarifləndirmə İctimai Birliyinin sədri Elman Cəfərli deyib.**

Birlik sədrinin qənaətincə, qlobal istiləşmə ilə əlaqədar dünyada içməli su böhranı yaranıb: "Mütəxəssislərin fikrinə görə, 30 ildən sonra dünyada içməli su mənbələri uğrunda müharibələr başlanacaq.

Azərbaycan su ehtiyatları az olan ölkələrdəndir. Bizim içməli su mənbələrimizi formalaşdıran əsas çaylar mənbəyini başqa ölkələrdən götürür. Su böhranı qapıdadır. Artıq insanlar, xüsusən işbazlar bunun fərqində olmalıdırlar. Qənaət rejiminə keçməyin tam zamanıdır. Hətta gündəlik mətbəxdə, məişətdə istifadə etdiyimiz suya belə qənaət etməliyik. Bakıda, bütövlükdə Abşeron ərazisində fəaliyyət göstərən avtoyuma məntəqələrinə nəzarət gücləndirilməlidir. Müəssisələr, yaşıllaşdırma idarələri texniki sudan istifadə etməlidir".

**E.Cəfərli söyləyib ki, əvvəllər Bakıda texniki su şəbəkəsi var idi:** "Məsələn, 1999-2004-cü illərdə yaşadığım Binə qəsəbəsində evlərə içməli su verilmirdi. İnsanlar çirkli qabları, paltarları texniki su ilə yuyurdular. İçməli suyu isə su maşınlarından alırdıq. Artıq Abşeron ərazisində texniki su şəbəkələri bərpa edilməli, istifadə olunan içməli suyun təkrar emalı həyata keçirilməli və avtoyumada bu cür sulardan istifadə olunmalıdır. Şəhərdə avtoyumada yağış suyundan da istifadə oluna bilər. Şəhərdə yağış suyunun toplanması daha asan başa gəlir və mümkündür. Yağış suyu kanalizasiya xəttindən toplanmalı, təkrar emaldan keçirilib avtoyumaya verilməlidir".

**Aygün Tahir**



# Sərnişin sıxlığı nəzərə alındı

## Bakı-Xırdalan-Bakı qatarına yeni reys əlavə olunub

**"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti (ADY) qatarların yolda olma vaxtlarının hərəkət sürətlərinə uyğunlaşdırılması, sərnişinlərin qrafik üzrə vaxtında mənzil başına çatdırılması və sərnişin sıxlığının qismən tənzimlənməsi məqsədilə 11 mart tarixindən etibarən Abşeron dairəvi dəmir yolu xətti üzrə hərəkət edən elektrik qatarlarının hərəkət cədvəlində dəyişikliklər edir.**

Bu barədə "Şərq"ə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətindən məlumat verilib.

Yenilənmiş hərəkət cədvəlini ADY-nin korporativ veb səhifəsindən (www.ady.az), Bakı Dəmiryol Vağzalının və Abşeron dairəvi dəmir yolu marşrutu üzrə bütün stansiya və dayanacaqlarda, həmçinin elektrik qatarların monitorlarından əldə etmək olar.

Eyni zamanda sözügedən tarixdən etibarən Bakı-Xırdalan-Bakı istiqamətində qısaldılmış marşrut üzrə əlavə ikinci qatar reysə buraxılacaq. İkinci qatarın xəttə buraxılması sərnişin sıxlığının qatarlar üzrə bərabər paylanılmasını təmin edəcək və turniketlərdə müşahidə olunan sıxlığı əhəmiyyətli dərəcədə azaldacaq.

*Qeyd edək ki, hazırda Abşeron dairəvi dəmir yolu xətti üzrə qatarlar mövcud qatar parkının sayına uyğun olaraq ən qısa intervalla işləyir.*

*ADY sərnişindaşıma xidmətinin keyfiyyətinin daha da yaxşılaşdırılması istiqamətində əlavə tədbirlər də planlaşdırır. Belə ki, 2023-2024-cü illərdə 10 ədəd Stadler FLIRT tipli sərnişin qatarının alınması Abşeron dairəvi dəmir yolu və regionlar üzrə sərnişin daşımalarının daha intensiv və keyfiyyətli təşkil olunmasına önəmli töhfə verəcək.*

# Gənc İT mütəxəssisləri Nar şəbəkəsində təcrübə keçir




**Azərbaycanın mobil rabitə sahəsində yerli kadrların yetişdirilməsiməqsədilə "Nar" İT ixtisası üzrə təhsil alan tələbələr üçün təcrübə proqramına başladı. Proqrama seçilən tələbələr "Nar"ın mobil rabitə şəbəkəsinə nəzarət edən peşəkar texniki heyətlə birgə çalışmaq və karyeralarını artıq indidən qurmaq imkanı əldə edir.**

May ayının sonunadək davam edəcək proqram çərçivəsində 27 tələbə Şəbəkə texnologiyaları departamentində təcrübə keçir. Bu tələbələr Azərbaycan Texniki Universitetinin (AzTU) İnformasiya və telekommunikasiya texnologiyaları fakültəsində təhsil alırlar.

*Qeyd edək ki, korporativ sosial məsuliyyət siyasətinin təhsilə dəstək istiqamətinə uyğun olaraq, "Nar" AzTU ilə uzunmüddətli əməkdaşlıq qurub. Əməkdaşlıq çərçivəsində universitetdə "Nar" GSM laboratoriyası fəaliyyət göstərir, "Nar"ın texniki heyəti mobil rabitənin əsasları barədə təlimlər keçir və AzTU tələbələri təcrübə proqramlarına cəlb edilir.*

# Kişilərin daha çox pul qazanması mentalitetlə bağlıdır

## Çünki o ailə başçısıdır və üzərinə daha çox yük düşür

**Bu gün əksər ölkələrdə kişilərin və qadınların maaşı arasında ciddi fərq var. Bəzi ölkələrdə kişi və qadınlar eyni işi görsələr də, kişilər qadınlardan daha çox əməkhaqqı alırlar. Qeyd edək ki, əməkhaqqı məsələsində gender balansının pozulması Dünya Bankının da diqqət mərkəzindədir.**



***"Bəzi hallarda işəgötürən də, öz qeydində yazır ki, yalnız qadınlar işə götürülür. Çünki 300-400 maaşla hər hansı kişinin gedib işləməsi real görünmür"***

Dünya Bankının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Sara Maykl və Avropa İttifaqının (Aİ) yerli nümayəndəliyinin rəhbəri Peter Mixalkonun 8 Mart - Beynəlxalq Qadınlar Günü ilə bağlı birgə yaydığı bəyanatda bildirilib ki, Azərbaycanda kişilər qadınlardan orta hesabla 35,2 faiz çox qazanır. Sənədə əsasən, bu, Avropa və Mərkəzi Asiyada qeydə alınmış ən kəskin fərqlərdən biridir: "Azərbaycanın əmək bazarında kişilərin və qadınların məşğulluq göstəricilərini mütləq nisbətdə müqayisə etdikdə kiçik gender boşluqları olsa da, onların harada və nə işlə məşğul olmaları arasında kəskin fərq var. Qadınlar daha az maaşlı sahələrdə, məsələn, səhiyyə və təhsildə işləməyə meyillidir, kişilər isə nəqliyyat və anbar xidmətləri, enerji və yaxud tikinti kimi daha yüksək maaşlı sahələrdə üstünlük təşkil edirlər".

Səfirlər hesab edir ki, hüquqi məhdudiyyətlərlə daha da dərinləşən bu iş yeri seqreqasiyası Azərbaycanda gender maaşlarının yüksək fərqinə səbəb olur: "Son vaxtlara qədər Azərbaycanda qadınların iqtisadiyyatın bir çox sahələrində - nəqliyyatdan energetikaya, kənd təsərrüfatına kimi 674 işdə işləməsinə icazə verilməyib.

Məsələn, qadınlar nə asfalt çəkə, nə qatar mühəndisi işləyə, nə də 14 oturacaqdan çox şəhər avtobusunu idarə edə bilməyiblər. Qadınlara yeraltı işlərdə işləmək, potensial təhlükəli işlərə və ağır fiziki əməyə cəlb olunmaq üçün qanunla qadağan edilmişdi. Keçmiş Sovet İttifaqından miras qalmış bu məhdudiyyətlər, ehtimal ki, qadınların sağlamlığını qorumaq məqsədi daşıyırdı, lakin hər bir iş riskin qiymətləndirilməsinə əsaslanmamalıdır. Üstəlik, son onilliklərdə texnologiyadakı irəliləyişlər, işin təbiətindəki və peşə sağlamlığı şəraitindəki dəyişikliklər nəzərə alınmalıdır.

2022-ci ilin noyabrında Azərbaycan qadınların məşğulluğuna qoyulan bu iş məhdudiyyətlərini ləğv etdi, Dünya Bankı ilə birlikdə bu rolların qadınların sağlamlığı üçün heç bir xüsusi təhlükə yaratmadığını nümayiş etdirdi. Genişmiqyaslı məhdudiyyətlər əvəzinə, yeni qaydalar müəyyən işlərə sağlamlıq riskinə əsaslanan yanaşmanı qəbul edir. Bu müsbət inkişaf bütövlükdə iqtisadiyyata və cəmiyyətə fayda verəcək, təkcə qadınlara deyil, hamıya qazanc gətirə bilər".

Qeyd edək ki, rəsmi məlumata görə, ölkə üzrə muzdla işləyən qadınların orta aylıq əməkhaqqı 552,2 manat, kişilərin orta aylıq əməkhaqqı isə 851,7 manat olub.

Qadın və kişilərin maaşı arasındakı kəskin fərqlə bağlı sosioloq Lalə Mehralı öz fikirlərini "Yenicag.az"la bölüşüb. Onun sözlərinə görə, kişilərdən fərqli olaraq qadınların işlə bağlı seçim imkanları olduqca aşağıdır. Bu isə qadınların az maaşlı işlərə üstünlük verməsinə yol açır: "Sözügedən statistik məlumat bir qədər də gender bərabərsizliyinin təməlini qoyur. Mental tərəfdən yanaşsaq, kişi və qadın əməyinin bir-birindən fərqli olduğunu etiraf etmək lazımdır. Lakin bərabər əmək tələb edən işlərdə maaş da eyni olmalıdır. Əgər kişi qadından daha çox enerji və əmək sərf edirsə, bu halda maaşında artımın olması normaldır. Kişilərin əskəriyyəti fiziki güc tələb edən işdə çalışır və bu, statistik göstəricilərdə özünü büruzə verir. Qadınlar bir çox hallarda ofisdaxili və ya nisbətən yüngül işlərdə çalışırlar. Elə qadınlar var ki, olduqca ağır şərtlər altında işləyirlər. Əgər kişi ailə başçısıdırsa, onun aşağı maaşlı işdə çalışmaq kimi şansı yoxdur. Çünki ailəsi onun qazandığı məvacib hesabına dolanır. Ailəli qadınlar adətən az maaşlı işdə çalışmağa da üstünlük verirlər. Düşünürlər ki, az da olsa evə əlavə gəlirin gəlməsini təmin edə bilirlər. Nəzərə almaq lazımdır ki, yüksək maaşlı iş yerlərində iş yükü də çox olur. Ona görə də qadınlar nisbətən az gəlirə qane olurlar. Bundan başqa, qadınların seçim imkanı zəifdir. Qadınlar hər mühitdə ola bilmirlər. Kişilər üçün bu cür seçim yoxdur və onlar istənilən mühitdə çalışa bilirlər".

**İqtisadçı- ekspert Rauf Qarayev "Şərq"ə açıqlamasında sözügedən uyğunsuzluğu gender bərabərsizliyindən daha çox mentalitetlə əlaqələndirib. Onun sözlərinə görə, ölkədə kişinin çox pul qazanması mentalitet baxımdan ona görə irəlidədir ki, o, ailə başçısıdır və üzərinə daha çox yük düşür:** "Statistik baxımdan götürsək ki, işə götürəndə kişilərə daha çox pul verilir, bu, düz deyil. Çünki bizdə cinsi ayrı-seçkilik yoxdur. Gender fərqi qoyulmadan vəzifəyə uyğun işəgötürülənə maaş verilir. Avropada isə bu məsələdə problem var. Orada bəzi hallarda cinsi ayrı-seçkilik olur və kişilər vəzifəsindən asılı olmayaraq daha çox əməkhaqqı alır. Bizdə isə bu hal yoxdur. Nə büdcədən maaş alanlarda, nə də özəl sahədə... Bizdə daha çox qazanmaq kişinin üzərinə ona görə düşür ki, o, ailə başçısıdır və ailənin bir çox maliyyə ehtiyacları onun üzərinə düşür. Bu baxımdan da, qadınlara nisbətən kişilər daha çox əməkhaqqı almaq haqqında düşünür və belə yerlərdə işləməyə can atırlar. Məsələn, qadın müəllim olaraq maaşla kifayətlənirsə və bu maaş onun xırda ehtiyaclarını ödəyirsə, bununla qadın razılaşır, amma müəllim işləyən kişi məcburdur ki, digər iş yerləri də axtarıb tapsın. Bu göstərici baxımdan kişilərin qazancı qadınlardan çox ola bilər. Ona görə də bəzi hallarda az maaşlı yerlərə qadınlar gedir və onlar orada işləyir. Mentalitet təfəkküründə də formalaşıb ki, kişi qadından daha çox pul qazanmalıdır.

Xaricdə, qeyd etdiyim kimi, gender bərabərsizliyi bu baxımdan var ki, kişilər daha çox vəzifəsindən asılı olmayaraq çox maaş alırlar".

R.Qarayevin sözlərinə görə, bəzi hallarda işəgötürən də, öz qeydində yazır ki, yalnız qadınlar işə götürülür. Çünki 300-400 maaşla hər hansı kişinin gedib işləməsi real görünmür.

**Şəymən**

**Elan**

Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyi tərəfindən İbrahimov Rizvan Tofiq oğluna verilmiş 1024 saylı veteran vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən "Fəcrin" Məhdud Məsuliyyətli Cəmiyyətinə verilmiş 089251 nömrəli lisenziyanın əlavəsi itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Mələhət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 660



## Şahzadə Keyt Middlton hərbi forma geyinib



**Britaniya monarxı Kraliça Elizabetin ölümündən sonra bəzi titullarda dəyişikliklər oldu.**

Ölkənin rəsmi qəzeti "The Gazette"də dərc olunan bəyannamə ilə Uels şahzadəsi ünvanını daşıyan Keyt Middlton İngiltərə ordusunu ziyarət edib.

Hərbi forma geyinən şahzadə Britaniya ordusunda "The Micks" kimi tanınan İrlandiya əsgərləri ilə görüşüb.

Qarlı poliqonda əsgərləri müşayiət edən şahzadə ilk yardım təliminə qatılıb.

40 yaşlı Middlton eskadrondakı əsgərlə söhbət edib. Qəşəng görünüşü ilə alışdığımız şahzadə hərbi forması, əlcəyi və bereti ilə mühitə uyğunlaşıb.

## "Avroviziya-2023"-də Azərbaycanı əkizlər təmsil edəcək



**"Avroviziya-2023" Beynəlxalq Mahnı Müsabiqəsində Azərbaycanı TuralTuranX dueti təmsil edəcək.**

Tural və Turan Bağmanovlar ifa etdikləri mahnının həm də müəllifləridirlər.

*Xatırladaq ki, "Avroviziya-2023" mahnı müsabiqəsi bu il 9-13 may tarixlərində Böyük Britaniyanın Liverpul şəhərində keçiriləcək.*





# İpək libasla qarlı zirvəyə

## 44 yaşlı gözəl rekorda imza atdı





**Rusiyalı turist Türkiyənin Palandökən Xizək Mərkəzində ilkə imza atıb. 44 yaşlı snoubordçu Tanya Tatyana gül qurusu rəngli ipək libasla buz dağına dırmanaraq snoubord hərəkətləri edib. Bu barədə "NTV.com.tr"məlumat paylaşıb. Tatyana bu barədə "hər kəs buz dağına alpinist və ya xizəkçi qiyafətləriylə dırmanır. Mən snoubord idmanını çox sevirəm. Və sevdiyim idman növünü ən çox sevdiyim libasımla gerçəkləşdirmək istədim.**

Etirazlara baxmayaraq mən bunu bacardım", söyləyib. Tatyana son 10 ildir tətil üçün məhz Türkiyəyə - Palandökən Xizək Mərkəzinə gəlir. Tatyana 2 övlad anasıdır. Rusiyada inşaat materiallarının satışı şirkəti var. Eyni zamanda snoubord qış idman növüylə də məşğul olur, buzlaqlara dırmanmaq hobbisidir. Tatyana ipək libasıyla dəniz səviyyəsindən 3 min 176 metr yüksəklikdəki Əjdaha Təpəsinə alpinistlərin köməyi ilə qalxıb, oradan snoubordla təhlükəli enişini 20 metr hündürlüyündə və 150 metr enindəki süni buz parkında tamamlayıb. Sonra da ayağına geyindiyi snoubordla mehmanxanaya gedib. Palandökəndə havanın temperaturu mənfi 3 dərəcədir. Tatyananın təhlükəli enişini xizək mərkəzindəkilər maraqla və heyrətlə izləyiblər. Tatyana isə bu günü heç unutmayacağını, Ərzurumu, Palandökəni çox sevdiyini deyib.

**Məlahət**



# 6 min illik heykəl

## ABŞ Türkiyəyə təhvil vermək istəmir



**Türkiyənin 6 min illik tarixə malik Ulduz ovçusu - "Guennol Stargazer" mərmər heykəlciyi ölkəyə geri qaytarmaq üçün qaldırdığı iddia üzrə apelyasiya məhkəməsi bitib. "Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, məhkəmə iddianı təmin etməyib. Məlum əsər Nyu-Yorkda milyonçu Maykl Steynhart və "Christies" Auksion Evi tərəfindən satışa çıxarılıbmış.**

Türkiyə iddia edir ki, tarixi əsər olan mərmər heykəlcik ölkədən qaçaqmalçılıq yoluyla çıxarılıb. Və 2017-ci ildə Nyu-Yorkda "Christies" Hərrac Evi tərəfindən təşkil olunmuş açıq hərracda 14,5 milyon dollara satılıb. Lakin Türkiyə hökuməti Mədəniyyət Nazirliyi xətti ilə hərraca etiraz edərək satışın dayandırılması və tarixi əsərin ölkəyə geri qaytarılmasını istəyib. İstək rədd edilincə məhkəməyə müraciət edilib və əsəri satışa çıxaran Makyl Steynhart, həmçinin "Christies" Auksion Evinə qarşı iddia qaldırılıb. Lakin məhkəmə iddiaya müsbət cavab verməyib və Türkiyə əleyhinə qərar çıxarıb. Məhkəmə iddianı qəbul etməməsinin səbəbini Türkiyənin gec müraciət etməsində, heykəlciyin nə zaman satışa çıxarılacağını gözləməklə vaxt itirməkdə görüb. Məhkəmə bu qərara gəlib ki, Türkiyə heykəlcik satışa çıxarılanadək - 2017-ci ilədək iddia qaldırmalı və tələb irəli sürməli idi. 2017-ci ildək heykəlciyin sahibi "Christies" Auksion Evi və M.Steynhart olublar. Dövlət ittihamçısı bildirib ki, Türkiyə heykəlciyin Nyu-Yorkda olduğuna dair məlumatlara malik olsa da, məhkəməyə müraciət etməkdə qərarsızlıq nümayiş etdirib. Ölkənin bu məzmunda qərarsızlığı anlaşılmazdır. Məhkəmədə Türkiyə adına vəkillik edən Lorens Kay isə əsərin öz tarixi vətəninə geri qaytarılması üçün ölkəsinin qərarlı olduğunu və bu işdən əl çəkməyəcəyini bildirib: "Türkiyə özünə məxsus tarixi əsər üçün sonadək mücadilə aparacaq". Heykəlciyin məhz Türkiyəyə mənsubluğu 1906-cı ilə aid Osmanlı qərarnaməsinə əsaslanır. Lakin əsəri satışa çıxaranlar onun haradan qaynaqlandığını araşdırmayıb və buna lüzum görməyiblər. ABŞ məhkəməsi isə tarixi əsərin Nyu-York Metropolitan Sənət Muzeyində 30 ildir nümayiş olunduğunu, bu barədə bir çox məqalələr yazıldığını, heykəlciyin gizli saxlanmadığını qeyd edib. Məhkəmə Türkiyə əleyhinə qərar versə də, mübahisəli məqamlar heykəlciyin alıcısını bu fikirdən vaz keçməyə sövq edib. Bu əsər üçün əvvəlcə 1,5 milyon dollar ödəyən alıcı daha sonra qərarından vaz keçərək heykəlciyi almaqdan imtina edib.

**Məlahət**

## Maraqlı araşdırma...

### "Z" nəsli heç də hər şeyi bilmir



**Rəqəmsal əsrdə doğulan "Z" nəsli texnoloji cihazları beş barmaq kimi bilsə də, iş yerlərində bəzi köhnə texnologiyalarla bağlı problemləri var. "The Guardian"ın xəbərinə görə, fotoredaktə və ağıllı telefon texnologiyaları mükəmməl bilən "Z" nəsli printer və skanerdən istifadə etməkdə çətinlik çəkir.**

Virciniya Universitetindən Sarah Dexter "Z" nəslinin keçmişdə məşhur olan texnologiyalardan xəbərsiz olduğunu və onların biliklərinin olmadığını vurğulayır. Gənclərin bu texnologiyalarda təcrübəsinin olmadığını qeyd edən Dexter bu nəslin informasiya əsrində doğulsa da, hər şey haqqında kifayət qədər məlumatlı olmadığını deyir.

ABŞ-də yerləşən "Hevlett-Packard" (HP) hesablama və printer şirkətinin araşdırmasına görə, "Z" nəslindən olan hər beş nəfərdən biri köhnə texnologiya ilə işləyən cihazlardan necə istifadə edəcəyini bilmədiyi üçün tənqid olunur. O da vurğulanır ki, bu cür texnologiyalardan istifadə edə bilməyən insanlar "lağa qoyulur".

Kompüter nəhəngi "Dell"in tədqiqatında iştirak edən 18-26 yaşlı insanların yarıdan çoxu bu texnologiyalardan istifadə etmək üçün kifayət qədər təlimə malik olmadıqlarını bildirirlər.

## Braziliyada kişi və qadınların maaşları bərabərləşəcək



**Braziliyada qadınlar kişilərlə müqayisədə orta hesabla 20 faiz az əməkhaqqı alır. Ölkə hakimiyyəti mövcud maaş ayrı-seçkiliyini aradan qaldırmaq niyyətindədir.**

Azərtac Agencia Brasil agentliyinə istinadla xəbər verir ki, 8 mart Beynəlxalq qadınlar günü Braziliya Prezidenti Luis İnasiu Lula da Silva eyni funksiyanı yerinə yetirən, yaxud eyni vəzifəni daşıyan kişi və qadınların əməkhaqlarının bərabərləşdirilməsi barədə qanun layihəsini parlamentə təqdim edib. Qanun layihəsinin müəllifi Braziliya parlamentinin deputatı Samiya Bonfindir.

Sənəd kompaniyaların əməkhaqqı ödənişi siyasətini daha şəffaf etməsini, həmçinin maaşlarda diskriminasiya ilə mübarizənin və yoxlamaların genişləndirilməsini nəzərdə tutur.

Braziliya Dövlət Statistika Agentliyinin 2019-cu ildə keçirdiyi sorğu qadınların bütün peşələr üzrə kişilərdən 20,5 faiz az pul qazandığını göstərib.

## Bakıda küçədə bodidə gəzən qızın görüntüləri rekord qırdı



**Sosial şəbəkələrdə yayılan video maraq doğurub.**

**Milli.Az bildirir ki, küçədə açıq-saçıq geyimdə gəzən qızın kadrları Instagram-da ən çox izlənilən reels-lərdən olub.**

**Fotoqraf Firəngiz Hüseynova paylaşdığı videoya "bu mənim ən dəlisov çəkilişimdir" sözlərini yazıb.**

## "WhatsApp"dan növbəti yenilik

### Qruplardakı insanların kim olduğu daha aydın olacaq



**"WhatsApp"da naməlum nömrələr əvəzinə adlar görsənəcək.**

**Trend-in məlumatına görə, "WhatsApp" qruplarında naməlum nömrələr əvəzinə platformada qeydiyyatdan keçmiş hesab sahibinin adı göstəriləcək. Beləliklə, qruplardakı insanların kim olduğu daha aydın olacaq.**

**Bu funksiya hazırda "iOS" üçün "WhatsApp" 23.0.73 Beta versiyasında mövcuddur. Onun stabil versiyaya nə vaxt gələcəyi bəlli deyil.**

## Çində göydən qurdlar yağıb



**Çində göydən qurdlar yağıb.**

**Azxeber.com xəbər verir ki, Çinin paytaxtı Pekində insanların və avtomobillərin üzərinə qurdlar yağıb.**

**Dəhşətli hadisədən sonra səlahiyyətlilər vətəndaşlara evdən çıxarkən çətirdən istifadə etmələri barədə xəbərdarlıq edib.**

**Görüntüyə baxan bəzi sosial şəbəkə istifadəçiləri də "qiyamət gəldi", - deyə reaksiya veriblər.**

**Sosial mediada paylaşılan videoda qurdların yağış kimi bütün avtomobilləri və küçələri bürüdüyü görünür. Eyni görüntülərin davamında işə gedən və gündəlik işlərini görən vətəndaşların qurdlardan qorunmaq üçün çətirdən istifadə etdiyi görünür.**